YENİ AZƏRBAYCAN

18 iyun 2026-cı il, cümə axşamı
№ 104 (7171)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-ABŞ əlaqələri uğurla inkişaf edir



Bax səh. 2



# Böyük Sərkərdənin silahdaşı kimi...

## "Sizə olan vəfa borcum övladlarıma mənəvi əmanətdir"...

Hörmətli Mehriban xanım,

Səhhətimlə bağlı yaşadığım çətin günlərdə göstərdiyiniz diqqət, qayğı və müalicəmi şəxsi nəzarətinizdə saxlamanız məni son dərəcə duyğulandırdı.

Ləyaqətli insani keyfiyyətlərinizə, həssas münasibətinizə və göstərdiyiniz diqqətə görə Sizə sonsuz və dərin minnətdarlığımı bildirirəm.

Qayğıkeşliyiniz, nəvazişiniz və şəfqətiniz ən qiymətli insani dəyərlərdəndir. Sizə olan vəfa borcum övladlarıma mənəvi əmanətdir. Sizə möhkəm cansağlığı, fəxarətli ömür, xalqımız naminə Böyük Sərkərdənin yanında silahdaşı kimi həyata keçirdiyiniz nəcib fəaliyyətinizdə daim uğurlar və müvəffəqiyyətlər arzulayıram.

Dərin hörmət və ehtiramla,

***Flora Kərimova***

# Mediada daha çevik və kollegial mexanizmə keçid zərurəti

Bax səh. 5



Bax səh. 2

## Ağdərə şəhərində Əlaqələndirmə Qərargahının iclası...



Bax səh. 3

## YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib



Bax səh. 3

## Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında Qarşılıqlı Anlaşma və Əməkdaşlıq Memorandumu imzalanıb

# Tahir Budaqov ilə Tun Vathana arasında görüş keçirilib

Bax səh. 4

## Fransanın Azərbaycana qarşı hibrid təhdidləri...

Fransanın Azərbaycana qarşı özündə hibrid təhdidlərin geniş spektrli komponentlərini ehtiva edən fəaliyyətləri hələ də davam edir. Xüsusilə də 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdən sonra Fransa tərəfi diplomatik çərçivəni aşaraq, regiondakı beynəlxalq hüquqa zidd maraqlarını təmin etmək məqsədilə müxtəlif vasitələr, platformalar və alətlərlə ölkəmizə qarşı hibrid təhdidlər yaratmağa çalışır.

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) Fransanın Azərbaycana qarşı hibrid təhdidləri ilə bağlı bəyanat yayıb. Komissiya öz səlahiyyətləri çərçivəsində apardığı monitorinqlər və empirik təhlillər nəticəsində müəyyən qənaətə gəlib. Bəyanatda bildirilir ki, Azərbaycan ilə Ermənistan arasında hazırda müşahidə edilən kövrək sülh prosesinə zərbə vuran iddialar, beynəlxalq təsisatlarda səsləndirilən birtərəfli mövqelər, Fransa mediası və məhkəmə-hüquq sistemində davam edən tendensiyalar onu deməyə əsas verir ki, bu təhdidlər Azərbaycanın daxili işlərinə qarışmağa, xarici siyasət kursuna təsir etməyə, beynəlxalq arenadakı mövqeyini zəifləməyə və regionda sabitliyi pozmağa hesablanıb.

Fransa dövlətinin və ona bağlı aktorların hibrid təhdidləri əsasən aşağıdakı istiqamətləri əhatə edir...

Bax səh. 4

## Diqqət Ukraynaya...

Cümə günü gözlənilən ABŞ ilə İran arasında sazişin imzalanması qlobal siayasətə yeni bir canlanma gətirib. Belə ki, Yaxın Şərq münaqişəsinin tənzimlənməsi digər münaqişə ocaqlarına da diqqət ayrılacağını deməyə əsas verir. Bu faktı ABŞ prezidenti Donald Tramp da təsdiqləyib. Ağ Evin rəhbəri bildirib ki, indi İran məsələsi arxa plana keçdiyi üçün diqqəti Ukrayna münaqişəsinin həllinə yönəldib. Ağ Evin "YouTube" kanalı ilə yayımlanan çıxışında Tramp "Biz İrana diqqət yetirirdik və indi o, arxa plana keçir", - deyə vurğulayıb. Amerika liderinin sözlərinə görə, Rusiya və Ukrayna razılığa gəlməlidir. ABŞ-ın Ukraynadakı hadisələrdə heç bir iştiraki olmasa da, o, münaqişənin həlli üçün mümkün olan hər şeyi edəcək.

Qeyd edək ki, ABŞ hələ ötən ildən Rusiya-Ukrayna müharibəsinin başa çatdırılması üçün fəaliyyət göstərir. Ötən ilin avqustunda Rusiya prezidenti Vladimir Putin ilə Alyaskada keçirilən görüş zamanı bir sıra məqamlar üzrə razılaşma da əldə olunmuşdu. Bu ilin yanvarında və fevralında isə həm ikitərəfli, həm də üçtərəfli formatda görüşlər keçirilmişdi. Yaxın Şərqdə müharibənin başlaması prosesi yarımçıq qoydu - artıq bir neçə aydır ki, bu istiqamətdə hər hansı bir danışıq aparılmır. Maraqlıdır ki, Trampın bu bəyanatı Avropa İttifaqının münaqişənin həlli ilə bağlı prosesi nəzarətə almaq istəyinin ifadəsinin ardından baş tutur. Xatırladaq ki, bir müddət öncə Londonda Avropa üçlüyü (Fransa, Almaniya, Böyük Britaniya...

Bax səh. 5

## İnklüziv maliyyə sisteminə doğru: Azərbaycanda yeni islahatlar mərhələsi

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iqtisadi artımın davamlı və sosial baxımdan ədalətli olması üçün əhalinin bütün təbəqələrinin maliyyə xidmətlərinə çıxış imkanlarının təmin edilməsi - maliyyə inklüzivliyi vacib şərtdir. Azərbaycan da son illərdə bu istiqamətdə mühüm addımlar atmış, maliyyə sektorunun modernləşdirilməsi və rəqəmsallaşdırılması sahəsində ciddi nailiyyətlər əldə etmişdir. Prezident İlham Əliyevin 26 may 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" bu sahədə həyata keçirilən siyasətin yeni mərhələsini təşkil edir. Sənəd yalnız maliyyə sektorunun inkişafına deyil, bütövlükdə ölkənin sosial-iqtisadi transformasiyasına xidmət edən genişmiqyaslı strateji proqram kimi qiymətləndirilə bilər.

Maliyyə inklüzivliyi anlayışı əhalinin və biznes subyektlərinin bank hesabları, kreditlər, əmanətlər, sığorta məhsulları, investisiya alətləri, elektron ödəniş sistemləri və digər maliyyə xidmətlərinə maneəsiz, təhlükəsiz və münasib...

Bax səh. 6

## Rusiyaya qarşı sanksiyalar gücləndirilir

Rusiyanın Ukraynaya qarşı hücumlarının gücləndiyi bir vaxtda Kiyevin müttəfiqləri və tərəfdaşları Moskvaya təzyiq üçün müxtəlif addımlar atırlar. Belə addımlardan biri də Rusiyaya qarşı sanksiyaları daha da genişləndirməkdir. Bugünlərdə Fransada keçirilən G7 ölkələrinin liderlərinin sammitində bu barədə razılığa gəlinib. Liderlər Ukraynaya dəstəyin davam etdirilməsi və Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsini məqsədəuyğun hesab ediblər.

Sammitin yekunu ilə bağlı bəyanatda qeyd olunub ki, Rusiyanın hərbi iqtisadiyyatına təzyiq artırılacaq, xüsusilə neft və qaz sektorlarına qarşı sanksiyalar gücləndiriləcək. G7 liderləri, həmçinin Ukraynaya sarsılmaz dəstəklərini bir daha təsdiqləyərək hava hücumundan müdafiə sistemləri və uzaqmənzilli silahların tədarükünün artırılması barədə razılığa gəldiklərini bildiriblər.

Bundan əlavə, bir neçə gün öncə Avropa İttifaqının (Aİ) səfirləri də Rusiyaya qarşı 21-ci sanksiya paketini müzakirə etməyə başlayıblar, lakin yaxın gələcəkdə heç bir praktik qərar qəbul edilməyəcək. Bu barədə Brüsseldəki diplomatik mənbə bildirib. Diplomatın sözlərinə görə, Aİ-nin daimi nümayəndələri Avropa Komissiyasının Rusiya və Belarusa qarşı 21-ci məhdudlaşdırıcı tədbirlər paketi ilə bağlı təkliflərini müzakirə etməyə başlasalar da, müzakirə xeyli...

Bax səh. 7

# Azərbaycan-ABŞ əlaqələri uğurla inkişaf edir

## Prezident İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvünü qəbul edib



Prezident İlham Əliyev iyunun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeni qəbul edib. Dövlətimizin başçısı Donald Trampın ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb. ABŞ Prezidenti ilə şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatlara səfərlərini və Donald Trampla görüşlərini, həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfərini məmnunluqla xatırlayaraq "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasını münasibətlərimizin genişləndirilməsi baxımından tarixi rola malik olduğunu qeyd edib.

Söhbət zamanı Abraham Hamadenin ABŞ Konqresində Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinə həmmüəllif olmasının əhəmiyyətinə toxunulub. Prezident İlham Əliyev Abraham Hamadenin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirib.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən qonaq ölkəmizin coğrafi baxımdan çox nadir bir məkanda yerləşdiyini bildirib, ölkəmizdə UFC və Formula 1 kimi mötəbər idman yarışlarının keçirildiyini də vurğulayıb.

Söhbət zamanı Azərbaycan və ABŞ prezidentlərinin strateji tərəfdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərinə toxunularaq, hər iki liderin dövlətlərarası münasibətlərimizin inkişafına böyük önəm verdikləri qeyd olunub. Donald Trampın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında rolu xüsusi vurğulanıb, regional nəqliyyat bağlantılarının inkişafı baxımından TRIPP dəhlizinin yaradacağı imkanlara toxunulub.

Görüşdə ölkəmizlə ABŞ Konqresi arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, Azərbaycan-ABŞ tərəfdaşlığının perspektivləri müzakirə olunub.



## Səhiyyə işçiləri təltif olunub

Prezident İlham Əliyev səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə bir qrup səhiyyə işçisini 3-cü dərəcəli "Əmək" ordeni və "Tərəqqi" medalı ilə təltif edib

## ABŞ Konqresinin nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadenin başçılıq etdiyi nümayəndə heyəti iyunun 17-də Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər güllər düzüb. Sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini protokol əməkdaşları və digər rəsmi şəxslər müşayiət ediblər.

## Baş nazir Əli Əsədova "Bright Uzbekistan" layihəsi təqdim olunub

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova Özbəkistana işgüzar səfəri çərçivəsində beynəlxalq media layihəsi olan "Bright Uzbekistan" jurnalının xüsusi buraxılışı təqdim edilib. Qeyd olunub ki, jurnalın Azərbaycanla bağlı nəşr edilən 3-cü və 4-cü xüsusi buraxılışları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin dövlətçilik irsinə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin əldə etdiyi uğurlara həsr olunub.



# Ağdərə şəhərində Əlaqələndirmə Qərargahının iclası keçirilib

## Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması istiqamətində intensiv iş aparılır





Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının üzvlərinin Ağdərə və Xocalı rayonlarına səfəri başlayıb. Qərargahın üzvləri əvvəlcə Ağdərə rayonunun Çaylı kəndində "Frutti Aqro" MMC tərəfindən salınmış intensiv meyvə bağına baxış keçiriblər. Onlara burada görülən işlər və planlaşdırılan tədbirlər barədə məlumat verilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə iyunun 17-də Ağdərə şəhərində Qərargahın növbəti iclası keçirilib. İclasda çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkənin hərtərəfli inkişafının əsasını təşkil etdiyini bildirib. O vurğulayıb ki, son dövrlərdə müxtəlif sahələr, o cümlədən kənd təsərrüfatı üzrə qəbul edilən strateji sənədlər, dövlət proqramları və həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişafının vahid yanaşma əsasında təmin olunduğunu bir daha təsdiqləyir.

Qərargah rəhbəri vurğulayıb ki, Böyük Qayıdış prosesi milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi, sosial və institusional sisteminə tam inteqrasiyasını nəzərdə tutur. Qeyd edilib ki, bu ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində zəruri infrastruktur qurulub. Hazırda əsas prioritet yaradılmış infrastruktur bazası üzərində dayanıqlı iqtisadi inkişafın təmin olunması, məskunlaşmanın iqtisadi və sosial dayaqlarının gücləndirilməsidir.

Qeyd olunub ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası yekunlaşmaq üzrədir və hazırda Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması istiqamətində intensiv iş aparılır.

Samir Nuriyev işğaldan azad edilmiş ərazilərin aqrar potensialının Böyük Qayıdış prosesinin iqtisadi dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, torpaq və su ehtiyatlarından səmərəli istifadə, aqrar istehsalın genişləndirilməsi, istehsal və emal imkanlarının yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində dayanıqlı məşğulluğun təmin olunması qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu baxımdan "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan tədbirlərin Böyük Qayıdış üzrə həyata keçirilən fəaliyyətlərlə əlaqələndirilməsi vacibdir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma əhalinin məşğulluğunun təmin edilməsindən, iş yerlərinin yaradılmasından və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsindən asılıdır. Bu baxımdan kənd təsərrüfatı da daxil olmaqla, müxtəlif sahələrdə məşğulluq imkanlarının artırılması, peşə bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və iqtisadi fəallığın yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

İclasda, həmçinin ekoloji dayanıqlılığın təmin edilməsi və su ehtiyatlarının idarə olunması məsələlərinə toxunulub. Bildirilib ki, təbii ehtiyatlardan səmərəli istifadə, ekosistemlərin bərpası və torpaq ehtiyatlarının qorunması uzunmüddətli inkişafın mühüm şərtlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin bərpası ilə yanaşı, su ehtiyatlarının müasir səviyyədə və qənaətli idarə olunması, müxtəlif sahələrin suya olan tələbatının balanslı şəkildə ödənilməsi və ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələr sırasındadır.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə və aqrar istehsalın təşkili, əhalinin məşğulluğunun təmin edilməsi, ekoloji dayanıqlılığın gücləndirilməsi və su ehtiyatlarının idarə olunması istiqamətində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji hədəflərə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi sosial-iqtisadi inkişaf prosesinə inteqrasiyasının sürətləndirilməsinin, Böyük Qayıdış prosesinin dayanıqlılığının təmin olunmasının və əhalinin rifahının yüksəldilməsi istiqamətində fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsinin vacibliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb.

İclasdan sonra iştirakçılar Ağdərə şəhərinin Baş planı ilə tanış olublar. Onlara şəhərin inkişaf perspektivləri və nəzərdə tutulan layihələr barədə məlumat verilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının Ağdərə şəhərində keçirilən iclasının iştirakçıları iyunun 17-də "Dəmirli" Filiz Emalı Kompleksində görülən işlərlə tanış olublar. İştirakçılara həyata keçirilən layihələrin bölgənin sosial-iqtisadi inkişafına töhfəsi barədə məlumatlar təqdim olunub.







# Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında Qarşılıqlı Anlaşma və Əməkdaşlıq Memorandumu imzalanıb










İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilən beynəlxalq konfransda iştirak məqsədilə ölkəmizə səfər edən Belarusun "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanovanın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Prezident İlham Əliyev ilə Prezident Aleksandr Lukaşenkonun iki ölkə arasında bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanan münasibətlərin inkişafına böyük önəm verdikləri, siyasi dialoq şəraitində iqtisadi-ticari, turizm, səhiyyə, elm, təhsil, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyi qeyd olunub.

İki dost ölkənin hazırda mürəkkəb geosiyasi şəraitdə - yeni dünya nizamına transformasiya ərəfəsində konstruktiv siyasət yürüdərək regional və qlobal təhlükəsizliyin təmini ilə bağlı prinsipial mövqe nümayiş etdirdikləri bildirilib. Milli maraqların qorunması və ortaq strateji hədəflərin gerçəkləşdirilməsi üçün beynəlxalq platformalarda qarşılıqlı dəstəyin önəmi vurğulanıb.

Görüşdə dövlətlərarası münasibətlərin inkişafında Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında əlaqələrin rolu diqqətə çatdırılıb. Cari ilin may ayında YAP nümayəndə heyətinin Belarusa səfəri məmnunluqla xatırlanaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib.

2022-ci ildən etibarən hər il iyunun 15-də Şuşa şəhərində Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransların ölkələr və partiyalar arasında münasibətlərin inkişafına təkan verdiyi vurğulanıb. Builki konfransın da mötəbər beynəlxalq tədbir kimi bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminlik ifadə olunub.

Sonra Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında Qarşılıqlı Anlaşma və Əməkdaşlıq Memorandumunun imzalanması mərasimi olub. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanova imzalayıblar.

Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi-hüquqi əsaslarını möhkəmləndirməklə partiyalar arasında əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəldəcəyinə və dövlətlərarası münasibətlərin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

# YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib

İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstelin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında ortaq dəyərlərə və müştərək maraqlara əsaslanan əlaqələrin gücləndirilməsi istiqamətində səmərəli fəaliyyətin həyata keçirildiyi qeyd olunub.

Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikri xatırladılaraq Azərbaycanın türk dövlətləri arasında işbirliyinin dərinləşdirilməsinə önəmli töhfələr verdiyi vurğulanıb.






Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi üzv statusunda qəbul olunmasında Azərbaycan Prezidentinin müstəsna rolu vurğulanaraq TDT-nin müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi istiqamətində atılan addımların strateji önəmi nəzərə çatdırılıb.

Görüş əsnasında 2023-cü ilin noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Türkiyənin Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələn vəzifələrin indiyədək uğurla icra olunduğu məmnunluqla qeyd olunub.

Hakim siyasi partiyalar arasında əməkdaşlığın inkişaf perspektivlərinin müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Tahir Budaqov ilə Tun Vathana arasında görüş keçirilib









İyunun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kamboca Xalq Partiyası Mərkəzi Komitəsi Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti Tun Vathananın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Kamboca arasında münasibətlərin dostluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığı, fəal siyasi dialoq şəraitində müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün mühüm potensialın olduğu qeyd edilib.

Dövlət başçılarının siyasi iradəsi nəticəsində iki ölkənin beynəlxalq müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində bir-birinin maraqlarını müdafiə etdikləri, ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verdikləri qeyd olunub.

Azərbaycan-Kamboca əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlığın, həmçinin qanunverici orqanlarda dostluq qruplarının fəaliyyətinin önəmi vurğulanıb.



YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin 2023-cü ilin iyul ayında Kambocaya səfəri çərçivəsində Baş nazir, Kamboca Xalq Partiyasının prezidenti Hun Sen ilə görüşü və parlament seçkilərini müşahidə etməsi, həmçinin bu ölkənin nümayəndə heyətinin ötən ilin oktyabr ayında Bakıda keçirilən ICAPP Mədəniyyət Şurasının 4-cü iclasında iştirakı məmnunluqla xatırlanıb.

Tun Vathana YAP nümayəndə heyətinin gələn il Kambocada keçiriləcək yerli seçkilərdə müşahidəçi qismində iştirakından məmnun olacaqlarını diqqətə çatdırıb.

Qarşılıqlı səfərlərin önəminə toxunularaq cari ilin iyun ayının 15-də YAP-ın təşkilatçılığı ilə "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilmiş beynəlxalq konfransın həm qlobal gündəliyin aktual məsələlərinin müzakirəsi, həm də partiyalarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğu bildirilib.

Tun Vathana ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sürətli inkişafının və işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işlərinin şahidi olduğunu söyləyib. O, beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür məktubunu təqdim edib.

Tahir Budaqov isə dəvəti qəbul edərək konfransda iştirakına və ölkəmiz haqqında xoş sözlərinə görə qarşı tərəfə minnətdarlığını ifadə edib. O, YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə və ölkələrarası münasibətlərin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlıq sazişinin imzalanması perspektivlərinin də müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

İlk növbədə, "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda konfransında iştirak etmək imkanına görə Sizə, həmkarlarınıza və Yeni Azərbaycan Partiyasına Kamboca nümayəndə heyəti adından dərin minnətdarlığımızı bildirmək istəyirəm. Konfrans sülh quruculuğu, transsərhəd iqtisadi əməkdaşlıq və Kamboca ilə Tailand arasında xmer məbədləri və sərhədyanı ərazilərə sahibliklə bağlı mübahisələrə dair fikir mübadiləsi aparmaq üçün dəyərli fürsət yaratdı. Həmçinin konfransın rahat və yüksək səmərəliliklə keçməsini təmin edən komandanızın nümayiş etdirdiyi peşəkarlığı və koordinasiyanı da qeyd etmək istərdim.

Azərbaycanda olduğum müddətdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin dayanıqlı inkişafını heyranlıqla müşahidə etdim. Qarabağda qısa müddət ərzində əldə olunmuş sürətli irəliləyişi xüsusilə qeyd etmək lazımdır. Son illərdə sülhə nail olunması təkcə Qarabağ əhalisi və bütövlükdə Azərbaycan xalqı üçün deyil, həm də daha geniş region və beynəlxalq ictimaiyyət üçün əhəmiyyətlidir.

Kamboca Xalq Partiyasının Sədri Samdek Hun Sen Azərbaycanla Kamboca arasında dostluq və tərəfdaşlığa böyük dəyər verir və işbirliyimizi, xüsusən də Yeni Azərbaycan Partiyası ilə Kamboca Xalq Partiyası arasında daha sıx əməkdaşlıq yolu ilə gücləndirmək üçün əlimdən gələni edəcəyəm. Partiyalarımız arasında daha böyük siyasi etimad və qarşılıqlı dəstəyin təşviqi üçün sizinlə və həmkarlarınızla sıx işləməyi səbirsizliklə gözləyirəm. İnanıram ki, Azərbaycan və Kamboca sülhün müdafiəsi və beynəlxalq hüquqa tam hörmətlə yanaşılması məsələlərində həmrəyliyi davam etdirəcəkdir.

Dəstəyinizə və nümayəndə heyətimizə ayırdığınız vaxta görə səmimi təşəkkürümü bildirirəm. Xalqlarımızın əmin-amanlığı və rifahı naminə dostluq və tərəfdaşlığın davam etdirilməsini və möhkəmlənməsini səmimi-qəlbdən arzulayıram.

***Hörmətlə,***
***Tun Vathana***
***Kamboca Xalq Partiyası Mərkəzi Komitəsinin Daimi Komitəsinin üzvü,***
***Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti***

# Fransanın Azərbaycana qarşı hibrid təhdidləri...



Fransanın Azərbaycana qarşı özündə hibrid təhdidlərin geniş spektrli komponentlərini ehtiva edən fəaliyyətləri hələ də davam edir. Xüsusilə də 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdən sonra Fransa tərəfi diplomatik çərçivəni aşaraq, regiondakı beynəlxalq hüquqa zidd maraqlarını təmin etmək məqsədilə müxtəlif vasitələr, platformalar və alətlərlə ölkəmizə qarşı hibrid təhdidlər yaratmağa çalışır.

**Parlament komissiyası bəyanat verib**

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) Fransanın Azərbaycana qarşı hibrid təhdidləri ilə bağlı bəyanat yayıb. Komissiya öz səlahiyyətləri çərçivəsində apardığı monitorinqlər və empirik təhlillər nəticəsində müəyyən qənaətə gəlib. Bəyanatda bildirilir ki, Azərbaycan ilə Ermənistan arasında hazırda müşahidə edilən kövrək sülh prosesinə zərbə vuran iddialar, beynəlxalq təsisatlarda səsləndirilən birtərəfli mövqelər, Fransa mediası və məhkəmə-hüquq sistemində davam edən tendensiyalar onu deməyə əsas verir ki, bu təhdidlər Azərbaycanın daxili işlərinə qarışmağa, xarici siyasət kursuna təsir etməyə, beynəlxalq arenadakı mövqeyini zəiflətməyə və regionda sabitliyi pozmağa hesablanıb.

Fransa dövlətinin və ona bağlı aktorların hibrid təhdidləri əsasən aşağıdakı istiqamətləri əhatə edir:

- "Lawfare", yəni hüquqi vasitələrlə təzyiq etmək yolu ilə Fransa parlamentinin hər iki palatası (Senat və Milli Assambleya) 2020-ci ilin noyabrından başlayaraq dəfələrlə Azərbaycanı hədəf alan, ölkəmizin suverenliyi və ərazi bütövlüyünün əleyhinə olan qətnamələr qəbul edib.

Diplomatik və siyasi təzyiq vasitəsi kimi istifadə edilən bu sənədlərin hüquqi qüvvəsi məhdud olsa da, onlar Fransanın təsir dairəsinin və erməni lobbisinin güclü olduğu digər ölkələrdə Azərbaycana qarşı oxşar yanaşmaların formalaşması məqsədilə qəbul edilir. Parlamentlərin bu cür birtərəfli və qərəzli sənədləri beynəlxalq arenada ölkəmiz barədə mənfi imic formalaşdırmağa, legitim mövqeyimizi zəiflətməyə, regionda sülhə və sabitliyə töhfə vermək əvəzinə, süni gərginlik yaratmağa xidmət edir.

- Beynəlxalq təşkilat və təsisatlarda, regional platformalarda Azərbaycan əleyhinə aktiv fəaliyyətin aparılması: İkinci Qarabağ müharibəsindən sonra Fransanın bəzi dövlət rəsmiləri, diplomatları, parlamentariləri və ictimai xadimləri BMT və onun qurumları, Avropa İttifaqının (Aİ) institutları (xüsusən Avropa Parlamenti), Avropa Şurası, AŞPA, ATƏT, eləcə də Beynəlxalq Frankofoniya Təşkilatı kimi platformalardan istifadə edərək Azərbaycanın maraqlarına zidd qərar və sənədlərin qəbul edilməsinə cəhdlər göstərib. Bu addımlar ölkəmizin beynəlxalq hüquqa uyğun hərəkətlərinə baxmayaraq onu təcrid etmək, nüfuzdan salmaq və müəyyən beynəlxalq əməkdaşlıq çərçivələrindən kənarlaşdırmaq məqsədilə edilib.

**Fransa mediası ölkəmizə qarşı...**

- Fransa mediasında Azərbaycana qarşı mənfi imicin formalaşdırılması: Fransa mətbuatında Azərbaycanın genişmiqyaslı şəkildə mənfi imicinin yaradılması artıq davamlı xarakter daşıyır. Təkcə may və iyun ayları ərzində Fransa mediasında Azərbaycan əleyhinə 40-a yaxın məqələnin dərc olunması, onlarla telereportajın hazırlanması mənfi təbliğatın intensivliyini göstərir. Fransa mediası Azərbaycana qarşı qərəzli, təhriflərə əsaslanan və dezinformasiya xarakteri daşıyan məlumatları yaymaqla hibrid təhdidlərin mühüm cəbhəsinə çevrilib.

- Fransa mediasında radikal müxalifətçilərə birtərəfli qaydada tribuna verilərək Azərbaycanın daxili işlərinə birbaşa qarışılması: Fransa mediasında Azərbaycanın daxilində və xaricində siyasi çəkisi olmayan bəzi radikal müxalifət nümayəndələrinin yazılarına və müsahibələrinə geniş yer verilərək ölkəmizdəki real vəziyyətin təhrif olunmasına, Fransa ictimaiyyətini çaşdırmağa yönəlmiş çağırışlar edilməsinə şərait yaradılır. Media azadlığı adı altında radikalların Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətlərini stimullaşdırmağa hesablanmış bu addımlar daxili sabitliyi pozmaq, habelə sosial narazılıq və ölkədə qütbləşmə yaratmaq məqsədlərinə xidmət edən elementdir. Obyektiv jurnalistika prinsiplərinə zidd olaraq, materiallarda Azərbaycan dövlətinin rəsmi mövqeyinə və ya alternativ fikirlərə yer verilməməsi isə bir daha sübut edir ki, bu fəaliyyətlər həm də Fransa cəmiyyətində ölkəmizlə bağlı mənfi rəyin formalaşdırılması məqsədilə bilərəkdən aparılır.

- Fransada siyasi sığınacaq adı ilə məskunlaşan azərbaycanəsilli radikal şəxslərdən hibrid təhdid alətləri kimi istifadə olunması: Bu kimi şəxslərə Fransanın rəsmi və qeyri-rəsmi dairələrinin davamlı dəstək verməsinin, onların "pozulan hüquqları"nın müxtəlif vasitələrlə, süni şəkildə və illərlə gündəmdə saxlanılmasının, demokratik dəyərlər pərdəsi altında siyasi motivli iddiaların önə çıxarılmasının yeganə məqsədi dövlətimizi beynəlxalq ictimaiyyət qarşısında "repressiv rejim" kimi təqdim etməyə və etibarsızlaşdırmağa yönəlib.

- Erməni lobbisinin koordinasiyası ilə anti-Azərbaycan fəaliyyətlərin aparılması: Fransada güclü erməni lobbisinin təsiri altında olan bəzi dövlət rəsmiləri, parlamentarilər və yerli idarəetmə orqanlarının rəhbərlərinin (merlər) anti-Azərbaycan fəaliyyətləri müntəzəm xarakter daşıyır. Fransız siyasətçilər güclü siyasi və iqtisadi əlaqələrə malik erməni lobbisinin təsiri altında tez-tez erməniпərəst mövqelərdən çıxış edir, Aİ daxilində və beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə əlaqələndirilmiş formada fəaliyyət göstərirlər. Bu fəaliyyətlər Azərbaycanın beynəlxalq hüquqla tanınmış suverenliyini və ərazi bütövlüyünü pozmağa yönəlir, Fransa ilə ikitərəfli əlaqələrdə böyük gərginlik yaradır.




- Erməniпərəst qruplar, Fransanın maliyyələşdirdiyi beynəlxalq QHT-lər, "insan hüquqları" təşkilatları və "araşdırmaçı jurnalist" şəbəkələri tərəfindən kampaniyaların idarə olunması: Hibrid təhdidlərin ən geniş yayılmış və təsirli elementlərindən biri də media və sosial media üzərindən aparılan informasiya kampaniyalarıdır. Fransa tərəfindən ya bilavasitə, ya da dolayı yolla dəstəklənən adıçəkilən qruplar onlayn platformalarda Azərbaycan əleyhinə müxtəlif mövzularda genişmiqyaslı kampaniyalar aparırlar. Bu kampaniyalar vasitəsilə saxta xəbərlər, təhrif olunmuş faktlar və təxribat xarakterli məlumatlar yayılır. Məqsəd ölkənin beynəlxalq imicinə xələl gətirmək və Azərbaycanın dövlət institutlarına qarşı inamsızlıq yaratmaqdır. Bu kampaniyalara bot şəbəkələri və saxta profillər də qoşularaq Azərbaycanla bağlı beynəlxalq ictimai rəyin manipulyasiya edilməsinə cəhd göstərilir.

**Casusluq fəaliyyətinin məqsədi nədir?**

- Fransanın Azərbaycanda casusluq fəaliyyəti: Fransa özünün hibrid təhdid strategiyasının mühüm hissəsi kimi ölkələrimiz arasında münasibətləri sarsıtmağa yönəlmiş casusluq fəaliyyəti ilə də məşğul olub. Bu qeyri-qanuni fəaliyyət regiondakı proseslərə təsir etməyə, Azərbaycanın daxili siyasi vəziyyətini, iqtisadi inkişafını, hərbi potensialını və strateji maraqlarını öyrənməyə, eləcə də Azərbaycan və digər ölkə vətəndaşlarından ibarət agentura şəbəkələri qurmağa yönəlib. Qarşıya qoyulan məqsədlər sırasında ölkə daxilində dezinformasiya yaymaq, müəyyən qruplar arasında narazılıq yaratmaq və sabitliyi pozacaq digər əməliyyatlar həyata keçirmək olub.

- Ermənistana silah satışı və Avropa İttifaqının Ermənistandakı missiyasının (EUMA) dəstəklənməsi: Fransanın Ermənistana fəal şəkildə silahlar ötürməsi və bölgədə əsasən kəşfiyyat fəaliyyəti ilə məşğul olan EUMA-nı birbaşa dəstəkləməklə onu şəxsi alətinə çevirməsi Cənubi Qafqazda hərbi balansı dəyişdirməyə, gərginliyi artırmağa və sülh prosesini əngəlləməyə yönəlmiş addımlar kimi qiymətləndirilir. Komissiyanın 2025-ci il aprelin 24-də təqdim etdiyi "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" başlıqlı xüsusi araşdırmasında məsələ ilə bağlı geniş məlumat verilib.

O da qeyd olunmalıdır ki, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya müvafiq dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə Fransanın hibrid təhdidlərinin təsirini heçə endirmək istiqamətində əks-tədbirlərini uğurla davam etdirir. Məhz bu tədbirlərin və Fransanın uğursuz həmlələrinin nəticəsidir ki, qarşı tərəf Azərbaycana qarşı hər dəfə yeni, dost olmayan hansısa əməllərə əl atır və müxtəlif platformalar vasitəsilə qondarma ittihamlar irəli sürdürür.

Qeyd edilənləri nəzərə alaraq, Komissiya Fransanın dövlət və hökumət rəsmilərinə deyil, Fransa xalqına birbaşa müraciət etməyi zəruri hesab edir. Sadalanan faktlar da göstərir ki, bir sıra fransız siyasətçilər və dövlət strukturları cəmiyyətin siyasi idarəçiliyə olan inamsızlığını pərdələmək və diqqəti ölkə daxilindəki ağır sosial-iqtisadi çətinliklərdən yayındırmaq məqsədilə Azərbaycanın simasında "xarici düşmən" obrazı yaratmağa, erməni lobbisi ilə qeyri-şəffaf əlaqələr çərçivəsində dövlətimizə qarşı hüquqi-etik normalarla uzlaşmayan fəaliyyətlər həyata keçirməyə üstünlük verirlər.

Azərbaycan xalqı hər zaman Fransa xalqını özünə dost hesab edib və bundan sonra da edəcək. Dövlətimiz müstəqillik tarixi boyunca Fransa ilə dostluğa, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa hazır olduğunu hər zaman bəyan edib. "Fransa cəmiyyəti bilməlidir ki, öz hökumətinin bu cür qeyri-dost fəaliyyətləri, xarici siyasətdəki hərəkətləri Fransaya siyasi və iqtisadi dividendlər gətirmək yerinə, onun beynəlxalq imicini ləkələyərək daha da korlayır"-deyə, bəyanatda vurğulanır.

***Nardar BAYRAMLI***

# Mediada daha çevik və kollegial mexanizmə keçid zərurəti

Müstəqil Azərbaycan tarixi Qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra keyfiyyətcə yeni strateji inkişaf mərhələsinə daxil olub. Bu mərhələdə yaranan yeni çağırışları qarşılamaq üçün bütün istiqamətlərdə, o cümlədən də media sahəsində islahatlar aparılması vazkeçilməz zərurət qismində çıxış edir. Təsadüfi deyildir ki, Vətən müharibəsinin başa çatmasından qısa müddət sonra Azərbaycan Prezidenti İlham Əliyev media sahəsində islahatların dərinləşməsi təşəbbüsü ilə çıxış edib. Hazırda dövlət başçımızın təşəbbüsünə uyğun olaraq ölkəmizdə Azərbaycan Respublikasının Audiovizual Şurası və Medianın İnkişafı Agentliyinin (MEDİA) əsasında kollegial idarəetmə sisteminə malik Media və Yayım Şurasının yaradılması ilə bağlı müzakirələr aparılır. Zəfərimizdən dərhal sonra bu zəruri addımın atılması ölkədə medianın inkişafının dövlətimiz üçün mühüm əhəmiyyət kəsb etdiyinin əyani göstəricisidir.

**Medianın inkişafına həssas yanaşma**

Mətbuat dövrün, cəmiyyətin güzgüsüdür. Son 150 il ərzində Azərbaycanın keçdiyi yolun bütün mərhələləri milli mətbatımızın səhifələrində öz əksini tapıb. Milli mətbuatımızın əsası isə görkəmli maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin misilsiz səyləri sayəsində ərsəyə gətirdiyi “Əkinçi” qəzetinin1875-ci il iyulun 22-də nəşrə başlaması ilə qoyulub. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafınada, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində mühüm rol oynayıb.

Milli mətbuatımız müasir dövrdə də üzərinə düşən missiyanı yüksək səviyyədə yerinə yetirir. Azərbaycan jurnalistləri ölkəmizin reallıqlarını uğurla təbliğ edir, respublikamız barədə informasiyaları obyektiv şəkildə və yüksək peşəkarlıqla dünya birliyinin diqqətinə çatdırırlar. Son 200 illik tariximizdə ən böyük Zəfərə imza atdığımız 44 günlük müharibə günlərində mətbuat təmsilçiləri, necə deyərlər, qələmi süngüyə çevirmişdilər. Onlar həm Azərbaycan, həm də xarici dillərdə yaydıqları xəbərlərdə erməni yalanlarını ifşa edir, Azərbaycanın ərazi bütövlüyü uğrunda ədalətli müharibə apardığını bütün dünyaya çatdırırdılar. Könüllü olaraq döyüşlərə qatılan jurnalistlərin sayı da kifayət qədər çox idi.

Jurnalistlərimiz hər zaman öz fəaliyyətlərində peşəkarlığı, milli ruhu, vətənpərvərliyi və demokratiyanı önə çəkdikləri kimi, dövlət də medianın inkişafına, çap və onlayn nəşrlərin zamanla ayaqlaşmalarına həssas münasibət sərgiləyir. Müstəqil Azərbaycanda azad mətbuatın inkişafına dövlət qayğısı siyasətinin əsasını ümmummilli lider Heydər Əliyev qoyub. Ölkə həyatında mətbuatın rolunu yüksək dəyərləndirən  Heydər Əliyev jurnalistlərin  böyük dostu idi. Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə mətbuatın problemlərini yaxından öyrənib və onların aradan qaldırılmasına yönələn tədbirlərin həyata keçirilməsinə nail olub. Prezident Heydər Əliyevin 1998-ci il 6 avqust tarixində imzaladığı “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmanı ilə senzuranın ləğv olunması KİV-lər üçün yeni dövr açdı. Bununla yanaşı, 1999-cu ilin sonunda “Kütləvi informasiya vasitələri haqqında”  Qanunun qəbulu media təsisatlarının inkişafını şərtləndirən, bəhs edilən sahəyə müvafiq surətdə sahəvi və ümummilli münasibətləri tənzimləyən hüquqi bazanın zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. 2000-ci ilin mart ayında Heydər Əliyevin Sərəncamı ilə “2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı” təsdiq olundu, 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Digər çoxsaylı faktları da sadalamaq mümkündür. Bütün bunlar, çox doğru olaraq Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün əlamətdar tarixi hadisələr kimi qiymətləndirilir.

Sonrakı mərhələdə isə Prezident İlham Əliyev media sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edib. Prezident İlham Əliyev medianın inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayıb və heç vaxt  öz qayğısını əsirgəməyib. Onun 2003-cü ildən bəri dövlət başçısı kimi fəaliyyət göstərdiyi dönəmdə  mətbuatın inkişafı üçün çoxsaylı tədbirlər görülüb, əhəmiyyətli nəticələr əldə edilib. Belə ki, həm hüquqi əsaslar, həm də Azərbaycan mətbuatının maddi-texniki bazası daha da gücləndirilib. Bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev dəfələrlə “Jurnalistlərin dostu” adına layiq görülüb.

**Yeni strateji mərhələnin çağırışları - dövlətin vahid institusional yanaşma strategiyası**

Azərbaycanda sürətli dəyişikliklər dövründə medianın çevik transformasiyasını və davamlı inkişafını təmin etmək məqsədi ilə hüquqi baza mütəmadi qaydada möhkəmləndirlir. Ölkəmizdə hazırda qüvvədə olan “Media haqqında” Qanun 2021-ci ilin dekabrında qəbul edilib. Azərbaycanda həyata keçirilən media islahatlarının “yol xəritəsi” olan “Media haqqında” Qanun keçən dövr ərzində ölkənin informasiya mühitinin sağlamlaşdırılması və qorunması sahəsində öz praktik əhəmiyyətini təsdiqləyib.

Yeni strateji mərhələnin çağırışları isə tamam fərqlidir. Cəmiyyətin müasir tələbləri və sürətli texnoloji inkişafın standartları ilə səsləşən media islahatları ölkənin informasiya mühitini sağlamlaşdırmağı, media subyektlərinin rəqabətə davamlılığının artırılmasını və müstəqiliyinin möhkəmləndirilməsini hədəfləyərək özündə sistemli yanaşmanı əks etdirir.

Rəqəmsal ekosistemin tələblərinə uyğun olaraq milli informasiya təhlükəsizliyini və medianın iqtisadi müstəqilliyini təmin etmək üçün Azərbaycanda media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb. Qlobal konvergensiya nəticəsində çap, onlayn və audiovizual media arasındakı sərhədlərin silinməsi, informasiya sisteminin əsas sütunu olan mediaya vahid yanaşmanı şərtləndirir.  Buna görə də hazırda media sahəsindəki islahatlar çərçivəsində yaradılmış Azərbaycan Respublikasının Audiovizual Şurası və Medianın İnkişafı Agentliyinin fəaliyyəti bir-birini tamamlayan mexanizm üzərində qurulub. Bu iki qurumun əsasında kollegial idarəetmə sisteminə malik Media və Yayım Şurasının yaradılması dövlətin vahid institusional yanaşma strategiyasından irəli gəlir.

**Qabaqcıl beynəlxalq təcrübəyə istinad**

Media və Yayım Şurası ilə bağlı vəzifə və öhdəliklərin “Media haqqında” Qanunda öz əksini tapması və qurumun kollegial idarəetmə modelini əsas götürməsi medianın müstəqilliyinə və quruma münasibətdə ictimai etimadın yüksəlməsinə zəmanət verən ən effektiv demokratik mexanizmdir.

Yeri gəlmişkən, qabaqcıl beynəlxalq təcrübə də göstərir ki, media sahəsində tənzimləmə və inkişaf funksiyalarının vahid və ya əlaqələndirilmiş institusional çərçivədə həyata keçirilməsi daha effektiv nəticələr verir. Məsələn, Böyük Britaniyada Ofcom yayımın tənzimlənməsi, rəqəmsal media mühitinin nizamlanması və media istifadəçilərinin maraqlarının qorunması funksiyalarını vahid qurum daxilində həyata keçirir. Fransada isə CSA (hazırda ARCOM) audiovizual sektorun tənzimlənməsi ilə yanaşı, rəqəmsal platformalara münasibətdə nizamlamanı da təmin edir. Bu kimi modellər göstərir ki, kollegial idarəetmə prinsiplərinin tətbiqi və vahid yanaşmanın formalaşdırılması media sahəsində səmərəliliyi artırmaqla ictimai etimadı da möhkəmləndirir.

**Hədəf nəticələri**

Hazırda ayrı-ayrı ölkələrdə medianın müəyyən dairələrin əlində alətə çevrildiyi də günümüzün reallığıdır. Media üzərindən saxta informasiyalar yaymaqla cəmiyyətlərə təsir göstərmək cəhdləri tez-tez təkrarlanır. Belə bir şəraitdə informasiya siyasətində dövlətin vahid institusional yanaşması öz növbəsində ölkənin informasiya məkanını çirkləndirmə cəhdlərinin, habelə dezinformasiya dalğasının təsirlərinin azaldılması və bu kimi neqativ hallara qarşı mübarizənin daha effektiv və mərkəzləşdirilmiş formada aparılmasına şərait yaradacaqdır. Qanunda nəzərdə tutulan dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, milli məhsul istehsalını stimullaşdırmağa, yerli medianın inkişafına təkan verməyə, nəticə etibarı ilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına daha geniş şərait yaradacaqdır.

Qeyd edək ki, məqsədi media subyektlərinə və onların redaksiyalarına, habelə jurnalistlərə dair məlumatları sistemləşdirimək olan Media Reyestrinə jurnalistlərin daxil edilməsi və müvafiq vəsiqə ilə təmin olunmaları qanuna dəyişikliklərdən sonra ödənişsiz əsasda həyata keçiriləcəkdir.

*Mübariz ABDULLAYEV*

# Diqqət Ukraynaya...

## ABŞ Yaxın Şərqdən sonra Moskva ilə Kiyev arasında sülh yaratmağa çalışacaq

Cümə günü gözlənilən ABŞ ilə İran arasında sazişin imzalanması qlobal siayasətə yeni bir canlanma gətirib. Belə ki, Yaxın Şərq münaqişəsinin tənzimlənməsi digər münaqişə ocaqlarına da diqqət ayrılacağını deməyə əsas verir. Bu faktı ABŞ prezidenti Donald Tramp da təsdiqləyib. Ağ Evin rəhbəri bildirib ki, indi İran məsələsi arxa plana keçdiyi üçün diqqəti Ukrayna münaqişəsinin həllinə yönəldib. Ağ Evin “YouTube” kanalı ilə yayımlanan çıxışında Tramp “Biz İrana diqqət yetirirdik və indi o, arxa plana keçir”, - deyə vurğulayıb. Amerika liderinin sözlərinə görə, Rusiya və Ukrayna razılığa gəlməlidir. ABŞ-ın Ukraynadakı hadisələrdə heç bir iştirakı olmasa da, o, münaqişənin həlli üçün mümkün olan hər şeyi edəcək.

**Avropa yenə danışıqlardan çıxır?**

Qeyd edək ki, ABŞ hələ ötən ildən Rusiya-Ukrayna müharibəsinin başa çatdırılması üçün fəaliyyət göstərir. Ötən ilin avqustunda Rusiya prezidenti Vladimir Putin ilə Alyaskada keçirilən görüş zamanı bir sıra məqamlar üzrə razılaşma da əldə olunmuşdu. Bu ilin yanvarında və fevralında isə həm ikitərəfli, həm də üçtərəfli formatda görüşlər keçirilmişdi. Yaxın Şərqdə müharibənin başlaması prosesi yarımçıq qoydu - artıq bir neçə aydır ki, bu istiqamətdə hər hansı bir danışıq aparılmır. Maraqlıdır ki, Trampın bu bəyanatı Avropa İttifaqının münaqişənin həlli ilə bağlı prosesi nəzarətə almaq istəyinin ifadəsinin ardından baş tutur. Xatırladaq ki, bir müddət öncə Londonda Avropa üçlüyü (Fransa, Almaniya, Böyük Britaniya) Ukrayna prezidenti Volodimir Zelenski ilə görüşmüşdü. Görüşdən sonra münaqişə ilə bağlı birgə bəyanat yaymışdılar - bəyanatda müharibəyə son qoymaq üçün Rusiya ilə danışıqlarda avropalıların və ABŞ-ın fəal iştirakına çağırış yer alırdı. London görüşünün iştirakçıları qeyd edirdilər ki,



“Avropa istənilən həlldə mühüm rol oynamalıdır”. Bəyanatda həmçinin təcili atəşkəs, təmas xəttinin başlanğıc nöqtəsi kimi götürülməsi, atəşkəsdən sonra Ukrayna üçün hüquqi cəhətdən məcburi təhlükəsizlik zəmanətlərinin verilməsi, Avropa təhlükəsizlik maraqlarının qorunması elementləri və bu kimi məsələlər yer alırdı. Liderlər Zelenskinin ABŞ və Avropanın fəal iştirakı ilə Ukrayna ilə Rusiya arasında birbaşa dialoq təklifini dəstəkləmişdilər. Onlar həmçinin Eviandakı G7 sammitindən, Könüllülər Koalisiyasından və NATO-nun Ankara sammitindən Ukraynaya dəstəyi əlaqələndirmək üçün necə istifadə edəcəklərini müzakirə etmişdilər.

**Növbəti görüş...**

Vurğulandığı kimi, Evianda baş tutan G7 sammiti daha çox Ukraynaya həsr olundu. Fransada baş tutan sammit çərçivəsində Ukrayna lideri ilə ABŞ prezidenti arasında görüş də keçirilib. Məlumata görə, sammitdə Tramp Rusiyanı sülh müqaviləsi bağlamağa çağırıb. O, Ukrayna münaqişəsinin artıq çoxlu insanın həyatına son qoyduğunu vurğulayıb.

Qeyd edildiyi kimi, Ukrayna və Fransa liderləri ABŞ Prezidenti Donald Trampla birlikdə göprüşüblər. Planlaşdırılan 30 dəqiqə əvəzinə bir saatdan çox davam edən “Ukrayna və Avropa üçün Sülh və Təhlükəsizlik Quruluşu” adlı görüşdə Tramp, Makron, Zelenski, eləcə də Almaniya kansleri Fridrix Merts, Böyük Britaniyanın Baş naziri Keyr Starmer, Kanadanın Baş naziri Mark Karni, İtaliyanın Baş naziri Corcio Meloni, Yaponiyanın Baş naziri Sanae Takaiçi, Avropa Komissiyasının sədri Ursula fon der Leyen və Avropa Şurasının sədri Antonio Kosta iştirak ediblər.

Görüşdən qısa müddət sonra Tramp jurnalistlərə Zelenski ilə “yaxşı görüş” keçirdiyini və günün “sonrası” yenidən görüşmək niyyətində olduğunu bildirib. Bu, Tramp və Zelenski arasında 28 dekabr 2025-ci ildə milyarderin Florida ştatının Mar-a-Laqo şəhərindəki iqamətgahında danışdıqları vaxtdan bəri ilk görüş idi. AFP-nin məlumatına görə, Ağ Ev rəhbəri Moskvanın Kiyevlə “razılaşmalı” olduğunu da bildirib. Tramp vurğulayıb ki, 2022-ci ilin fevral ayında münaqişə başlayandan bəri “Rusiya, Ukrayna kimi, inanılmaz sayda insan itirib”.

O əlavə edib ki, “Mənim bu işə qarışmağımın yeganə səbəbi hər ay 25.000 gəncin ölməsini istəməməyimdir. Hər ay 25.000 insan ölür, həyata yeni başlayan gənclər ölür. Onlar cəbhə xəttinə göndərilir və məhv edilirlər...”

**Ukrayna tələsir...**

Görüşdən sonra Ukrayna lideri Zelenski də şərh verib. “Suspilne” televiziya kanalının məlumatına görə, o, görüş zamanı tərəfdaşların Ukraynanın mövqeyini dəstəklədiyini bildirib. Ukrayna liderinin sözlərinə görə, müzakirə, digər məsələlərlə yanaşı, enerji paketi, gücləndirilmiş hava hücumundan müdafiə, Ukrayna şəhərlərini ballistik raketlərdən qorumaq üçün əlavə Patriot tutucu raketləri və tutucu istehsal lisenziyaları üzərində qurulub.

“Reuters Next” konfransında onlayn müsahibə zamanı Zelenski Trampın lisenziya tələbinə reaksiyasının “çox müsbət” olduğunu söyləyib. O, həmçinin Eviandakı görüşün (“Ukrayna görüşü”) məzmununu izah edib: “Rusiya ilə danışıqların perspektivlərini, uzaqmənzilli silahları, Rusiya itkilərini, iqtisadiyyatı və sair məsələləri müzakirə etdik. Xoş xəbər budur ki, bəli, ortaq fikir var: Putin döyüşləri dayandırmalıdır”.  O, əlavə edib ki, hazırda Rusiya cəmiyyətinin 60 faizdən çoxu müharibənin dayanmasını istəyir.

Ukrayna prezidenti vurğuladı ki, “Rusiyaya dolayı təzyiq” göstərməyin yolları hələ də mövcuddur: “Düşünürəm ki, Prezident Tramp bunu etməyə qadirdir və bəlkə də yalnız o buna qadirdir”. Zelenski avropalılardan da addımlar gözlədiyini gizlətməyib. “Keçən qış bizim üçün dəhşətli idi və başa düşməlisiniz ki, əlbəttə ki, eyni qışı yenidən yaşamaq istəmirik. Amma Rusiya bu il başa düşməlidir ki, əgər bizdə dəhşətli bir qış olarsa, onlarda da belə bir qış olacaq”, - deyə Ukrayna prezidenti bildirib. “Bu il təxminən 10 milyon dron istehsal etməliyik, amma bu rəqəmi ikiqat artıra bilərik”, - deyə o vurğulayıb. Zelenski həmçinin Rusiya prezidenti Putini Eviana dəvət etməyin onun təşəbbüsü olduğunu bildirib: “G7-yə dəvət olunanda Makrona zəng etdim və dedim ki, ‘Emmanuel, neytral ölkə olan İsveçrədə - ruslarla görüş təşkil etmək üçün G7-yə, bir çox liderin iştirakına etibar etməyin yolunu tapmaq barədə nə düşünürsünüz?’ O, bu ideyadan çox məmnun idi, amma ruslar bunu dəstəkləmədilər.”



Zelenski Reuters agentliyinə verdiyi açıqlamada bildirib ki, o, Ukrayna və Rusiya liderləri arasında görüşün təşkili barədə yenidən Prezident Trampla danışıb: “Bu görüş İsveçrə, Türkiyə, Yaxın Şərq ölkələrinedən birində ola bilər... Dəqiq bilmirəm, mən ABŞ prezidenti deyiləm,  amma düşünürəm ki, ABŞ da belə bir görüşün keçiriləcəyi yer ola bilər. Axı Trampın Putinlə Alyaskada görüşü olub.”

**Tramp Putin ilə danışıb**

Qeyd edək ki, ABŞ prezidenti Tramp G7 sammitində iyunun 14-də Putinlə də danışdığını bildirib. ABŞ prezidenti hər iki söhbəti “çox yaxşı” adlandırıb. Ağ Ev rəhbəri bildirib ki, “Və görürəm ki, bəlkə orada nəsə edə bilərik, həqiqətən də belə düşünürəm. Düşünürəm ki, hər ikisi buna hazırdır, ona görə də indi İran məsələsi bitdiyinə görə, Ukraynada sülhə nail olmaq işinə diqqət yetirəcəyik”. Donald Tramp başqa bir açıqlamasında Rusiyanın sülhə razılaşmalı olduğunu təkrarlayıb.

**Görüş harada baş tutsun?**

Göründüyü kimi hazırki hədəf Rusiya və Ukrayna liderlərinin görüşünün təşkilidir. “RBC-Ukraine” nəşri G7 toplantısına Putinin dəvət olunduğunu və bu təklifin vasitəçilər, diplomatlar və kəşfiyyat kanalları vasitəsilə Moskvaya çatdırıldığını bildirib. Moskvadan heç bir cavab verilməyib. Çərşənbə axşamı Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya G7 sammiti çərçivəsində Vladimir Putin və Volodimir Zelenski arasında görüş üçün rəsmi təkliflər almayıb.

Mümkün görüşün ABŞ-da baş tutma təklifi isə Ukranya üçün məqbuldur. Zelenski bildirib ki, ABŞ-da üçtərəfli görüş keçirilə bilər. “Belə bir görüş ABŞ-da elə bir formatda təşkil edilə bilər ki, həm Putin, həm də prezident Tramp bundan imtina etməz”, - deyə Zelenski qeyd edib.

Putinin xarici siyasət üzrə köməkçisi Yuri Uşakov çərşənbə axşamı günü bildirib ki, Putin və Tramp 14 iyun telefon danışığı zamanı görüşlbə bağlı heç nə müzakirə etməyiblər və Rusiya belə bir görüş üçün heç bir təklif almayıb.

*P.İSMAYILOV*

# İnklüziv maliyyə sisteminə doğru: Azərbaycanda yeni islahatlar mərhələsi

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iqtisadi artımın davamlı və sosial baxımdan ədalətli olması üçün əhalinin bütün təbəqələrinin maliyyə xidmətlərinə çıxış imkanlarının təmin edilməsi - maliyyə inklüzivliyi vacib şərtdir. Azərbaycan da son illərdə bu istiqamətdə mühüm addımlar atmış, maliyyə sektorunun modernləşdirilməsi və rəqəmsallaşdırılması sahəsində ciddi nailiyyətlər əldə etmişdir. Prezident İlham Əliyevin 26 may 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı” bu sahədə həyata keçirilən siyasətin yeni mərhələsini təşkil edir. Sənəd yalnız maliyyə sektorunun inkişafına deyil, bütövlükdə ölkənin sosial-iqtisadi transformasiyasına xidmət edən genişmiqyaslı strateji proqram kimi qiymətləndirilə bilər.

**İqtisadi siyasətin ən vacib istiqamətlərindən biri**

Maliyyə inklüzivliyi anlayışı əhalinin və biznes subyektlərinin bank hesabları, kreditlər, əmanətlər, sığorta məhsulları, investisiya alətləri, elektron ödəniş sistemləri və digər maliyyə xidmətlərinə maneəsiz, təhlükəsiz və münasib qiymətlərlə çıxış imkanlarını ifadə edir. Başqa sözlə, maliyyə sisteminin əsas məqsədi yalnız kapitalın dövriyyəsini təmin etmək deyil, eyni zamanda iqtisadiyyatın bütün iştirakçılarını maliyyə münasibətlərinə cəlb etməkdən ibarətdir.

Müasir dövrdə maliyyə inklüzivliyi iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri hesab edilir. Çünki maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi vətəndaşların iqtisadi fəallığını artırır, yığım vərdişlərinin formalaşmasına kömək edir və investisiya potensialını gücləndirir. Bank hesabına malik olan vətəndaşlar gəlirlərini daha səmərəli idarə edə bilər, kredit resurslarından istifadə edərək sığorta vasitəsilə risklərini azalda və investisiya imkanlarından yararlana bilirlər. Bu isə öz növbəsində ölkədə daxili maliyyə resurslarının formalaşmasına və iqtisadi aktivliyin yüksəlməsinə şərait yaradır.

Beynəlxalq təcrübə göstərir ki, maliyyə inklüzivliyi ilə iqtisadi artım arasında birbaşa əlaqə mövcuddur. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər nüfuzlu təşkilatların araşdırmalarına əsasən, maliyyə xidmətlərindən istifadənin geniş yayıldığı ölkələrdə ÜDM-in artım tempi daha yüksək olur, yoxsulluq səviyyəsi azalır və sosial bərabərlik güclənir. Maliyyə xidmətlərinə çıxış imkanlarının artması xüsusilə aşağı gəlirli əhali qruplarının iqtisadi fəaliyyətə qoşulmasına imkan verir. Beləliklə, maliyyə inklüzivliyi sosial inteqrasiyanın və inklüziv iqtisadi inkişafın mühüm mexanizmlərindən biri kimi çıxış edir.

Maliyyə inklüzivliyinin digər mühüm təsiri sahibkarlığın inkişafı ilə bağlıdır. Kiçik və orta sahibkarlıq subyektləri iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən hesab olunur. Lakin bir çox hallarda bu müəssisələr maliyyə resurslarına çıxış imkanlarının məhdud olması səbəbindən fəaliyyətlərini genişləndirə bilmirlər. Maliyyə inklüzivliyinin yüksəlməsi sahibkarların kredit, lizinq, faktoring və digər maliyyə alətlərindən istifadə imkanlarını genişləndirərək biznes fəaliyyətinin inkişafına şərait yaradır. Nəticədə yeni müəssisələr yaranır, məşğulluq artır və iqtisadiyyatın rəqabət qabiliyyəti yüksəlir. Rəqəmsal texnologiyaların inkişafı maliyyə inklüzivliyinə yeni məzmun qazandırmışdır. Mobil bankçılıq, elektron pul kisələri, rəqəmsal ödəniş sistemləri və fintech həlləri ənənəvi maliyyə xidmətlərinin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Xüsusilə kənd və ucqar ərazilərdə yaşayan əhalinin maliyyə xidmətlərindən istifadəsi rəqəmsal texnologiyalar vasitəsilə daha əlçatan olmuşdur. Bu proses həm maliyyə əməliyyatlarının sürətlənməsinə, həm də əməliyyat xərclərinin azalmasına səbəb olmuşdur.

Azərbaycan üçün maliyyə inklüzivliyi məsələsi strateji əhəmiyyət daşıyır. Son illərdə həyata keçirilən iqtisadi islahatlar, rəqəmsal hökumət layihələri, elektron ödəniş sistemlərinin inkişafı və bank sektorunda aparılan struktur dəyişiklikləri maliyyə xidmətlərinin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bununla belə, regionlar üzrə maliyyə əlçatanlığında fərqlər, mikro sahibkarların maliyyələşmə problemləri və maliyyə savadlılığının yetərli səviyyədə olmaması yeni çağırışlar yaratmaqdadır. Məhz buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı” maliyyə sisteminin inkişafını yeni mərhələyə çıxarmağı hədəfləyir.

Proqramın əsas məqsədi maliyyə xidmətlərini ölkənin bütün vətəndaşları üçün əlçatan etmək, iqtisadi inkişafın nəticələrindən daha geniş əhali qruplarının faydalanmasını təmin etmək və maliyyə sektorunun iqtisadi artıma töhfəsini artırmaqdan ibarətdir. Bu yanaşma maliyyə sisteminin yalnız iqtisadiyyatın müəyyən seqmentlərinə deyil, bütövlükdə cəmiyyətin rifahına xidmət edən sosial-iqtisadi institut kimi formalaşdırılmasına yönəlmişdir.



**Dövlət Proqramının qəbul edilməsini şərtləndirən amillər**

Azərbaycan son onilliklər ərzində maliyyə sektorunun inkişafı sahəsində mühüm uğurlar əldə etmişdir. Bank sektorunda aparılan struktur islahatları, maliyyə bazarlarının tənzimlənməsinin təkmilləşdirilməsi, elektron hökumət sistemlərinin tətbiqi və rəqəmsal maliyyə xidmətlərinin genişləndirilməsi nəticəsində maliyyə sisteminin dayanıqlılığı əhəmiyyətli dərəcədə artmışdır. Xüsusilə son illərdə rəqəmsal ödənişlərin sürətli inkişafı, onlayn bank xidmətlərinin geniş yayılması və nağdsız hesablaşmaların həcminin artması maliyyə sektorunun transformasiyasına ciddi təkan vermişdir. Mövcud nailiyyətlərə baxmayaraq, maliyyə xidmətlərinə çıxış imkanları əhali və regionlar üzrə bərabər səviyyədə deyil. Dövlət Proqramında göstərildiyi kimi, 2011-ci ildə yetkin yaşlı əhalinin yalnız 14,9 faizinin bank hesabı olduğu halda, 2025-ci ildə bu göstərici 70,7 faizə yüksəlmişdir. Bu artım mühüm nailiyyət hesab olunsa da, inkişaf etmiş ölkələrin göstəriciləri ilə müqayisədə hələ də müəyyən fərqin mövcud olduğunu göstərir. Bir çox inkişaf etmiş ölkələrdə bank hesabına malik əhalinin xüsusi çəkisi 90-98 faiz arasında dəyişir.

Xüsusilə kənd yerlərində yaşayan vətəndaşlar, yaşlı insanlar, aşağı gəlirli ailələr, mikro sahibkarlar və kənd təsərrüfatı istehsalçıları maliyyə xidmətlərindən istifadə imkanları baxımından müəyyən məhdudiyyətlərlə üzləşirlər. Bank filiallarının qeyri-bərabər yerləşməsi, maliyyə savadlılığının aşağı səviyyədə olması və bəzi maliyyə məhsullarının yüksək qiyməti bu məhdudiyyətlərin əsas səbəblərindən hesab edilir. Digər mühüm amil iqtisadiyyatın şaxələndirilməsi ilə bağlıdır. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu məqsədə nail olmaq üçün mikro, kiçik və orta sahibkarlığın maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi zəruridir. Mövcud maliyyələşmə mexanizmləri bəzi hallarda yeni yaradılmış bizneslərin və innovativ layihələrin ehtiyaclarını tam şəkildə qarşılamır. Bu səbəbdən alternativ maliyyə alətlərinin tətbiqi və maliyyə bazarlarının dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Qlobal rəqəmsal transformasiya prosesləri də yeni Dövlət Proqramının qəbulunu şərtləndirən amillər sırasındadır. Dünyada maliyyə xidmətləri sürətlə rəqəmsallaşır, açıq bankçılıq modelləri formalaşır və fintech şirkətlərinin rolu artır. Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi və maliyyə sektorunun qlobal tendensiyalara uyğun inkişaf etdirilməsi üçün bu sahədə yeni institusional və texnoloji yanaşmaların tətbiqi zəruri hesab olunur. Maliyyə inklüzivliyi sosial rifahın artırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Maliyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi əhalinin maliyyə təhlükəsizliyini artırır, gəlirlərin idarə olunmasını asanlaşdırır və vətəndaşların iqtisadi risklərə qarşı dayanıqlığını gücləndirir. Bu isə sosial sabitliyin və iqtisadi dayanıqlığın möhkəmləndirilməsinə xidmət edir.

**Kənd təsərrüfatında maliyyə inklüzivliyinin əhəmiyyəti**

Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı strateji əhəmiyyətə malik sahələrdən biri hesab olunur. Ölkə əhalisinin mühüm hissəsi kənd yerlərində yaşayır və gəlirlərinin əhəmiyyətli hissəsini aqrar fəaliyyətdən əldə edir. Son illərdə dövlət tərəfindən kənd təsərrüfatının inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilsə də, fermerlərin maliyyə xidmətlərinə çıxış imkanları hələ də arzuolunan səviyyədə deyil. Xüsusilə kiçik torpaq sahibləri, ailə təsərrüfatları və yeni fəaliyyətə başlayan fermerlər maliyyə resurslarına çıxış zamanı müəyyən çətinliklərlə üzləşirlər.

Kənd təsərrüfatının spesifik xüsusiyyətləri maliyyələşdirmə mexanizmlərinin də fərqli olmasını tələb edir. Aqrar istehsal mövsümi xarakter daşıdığı üçün fermerlərə uzunmüddətli və güzəştli maliyyə məhsulları lazımdır. Ənənəvi kredit mexanizmləri isə bir çox hallarda kənd təsərrüfatının risklərini və xüsusiyyətlərini tam nəzərə almır. Nəticədə fermerlərin bir hissəsi ya kredit ala bilmir, ya da yüksək faiz dərəcələri səbəbindən maliyyə resurslarından istifadə etməkdə maraqlı olmur.

“Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı” bu problemlərin həlli istiqamətində kompleks yanaşma təklif edir. Proqram çərçivəsində fermerlər üçün xüsusi kredit məhsullarının hazırlanması, aqrar sığorta mexanizmlərinin genişləndirilməsi, rəqəmsal maliyyə xidmətlərinin kənd yerlərində tətbiqi və maliyyə savadlılığının artırılması nəzərdə tutulur. Bu tədbirlər kənd təsərrüfatının maliyyə dayanıqlığını gücləndirməklə yanaşı, kənd yerlərində sahibkarlığın inkişafına da müsbət təsir göstərəcəkdir.

Aqrar sığorta sisteminin genişləndirilməsi xüsusilə mühüm əhəmiyyət daşıyır. İqlim dəyişiklikləri, quraqlıq, dolu, sel və digər təbii hadisələr kənd təsərrüfatında risklərin artmasına səbəb olur. Fermerlərin bu risklərdən qorunması investisiya fəallığının yüksəlməsi və istehsalın davamlılığının təmin edilməsi baxımından vacibdir. Sığorta mexanizmlərinin inkişafı nəticəsində kənd təsərrüfatı istehsalçıları maliyyə itkilərindən daha effektiv şəkildə qoruna biləcəklər. Kənd təsərrüfatında rəqəmsal maliyyə həllərinin tətbiqi fermerlərin maliyyə xidmətlərindən istifadəsini asanlaşdıracaq. Mobil tətbiqlər vasitəsilə kredit müraciətlərinin edilməsi, subsidiya ödənişlərinin rəqəmsal formada həyata keçirilməsi, elektron ödəniş sistemlərinin genişləndirilməsi və maliyyə əməliyyatlarının onlayn aparılması kənd yerlərində maliyyə əlçatanlığını əhəmiyyətli dərəcədə artıracaqdır.

Kənd təsərrüfatında maliyyə inklüzivliyinin genişləndirilməsi aqrar sektorun modernləşdirilməsinə, məhsuldarlığın yüksəlməsinə, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə və regionların sosial-iqtisadi inkişafına mühüm töhfə verə bilər.

**Rəqəmsal maliyyə transformasiyası**

Yeni Dövlət Proqramında rəqəmsal maliyyə transformasiyası əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Proqram açıq bankçılıq sisteminin inkişafını, rəqəmsal identifikasiya mexanizmlərinin təkmilləşdirilməsini, biometrik texnologiyaların tətbiqini və ani ödəniş sistemlərinin genişləndirilməsini nəzərdə tutur. Bu tədbirlər maliyyə xidmətlərinin daha sürətli, daha təhlükəsiz və daha əlçatan olmasına imkan yaradacaqdır. Açıq bankçılıq konsepsiyasının tətbiqi maliyyə sektorunda rəqabətin güclənməsinə və innovativ xidmətlərin yaranmasına şərait yarada bilər. Müştərilər müxtəlif maliyyə institutlarının xidmətlərindən daha rahat istifadə edə, maliyyə məlumatlarını təhlükəsiz şəkildə paylaşa və daha uyğun maliyyə məhsullarını seçə biləcəklər. Bu isə bazarda şəffaflığın artmasına və xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olacaqdır.

Rəqəmsal transformasiya maliyyə əməliyyatlarının xərclərinin azalmasına da mühüm təsir göstərir. Ənənəvi filial şəbəkələrinin saxlanılması ilə müqayisədə rəqəmsal xidmətlərin təqdim edilməsi daha az xərc tələb edir. Bu isə maliyyə xidmətlərinin daha geniş əhali qrupları üçün əlçatan olmasına imkan yaradır. Rəqəmsal maliyyə xidmətlərinin inkişafı kölgə iqtisadiyyatının azaldılması, vergi daxilolmalarının artırılması və maliyyə şəffaflığının gücləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Nağdsız ödənişlərin geniş yayılması iqtisadi münasibətlərin daha şəffaf şəkildə həyata keçirilməsinə şərait yaradır və dövlətin fiskal siyasətinin effektivliyini artırır.

**Maliyyə savadlılığının artırılması**

Maliyyə inklüzivliyinin uğurlu inkişafı yalnız maliyyə xidmətlərinin əlçatanlığından deyil, həm də vətəndaşların həmin xidmətlərdən düzgün və səmərəli istifadə etmək bacarığından asılıdır. Maliyyə savadlılığı insanların şəxsi büdcəsini idarə etmək, kredit öhdəliklərini qiymətləndirmək, investisiya qərarları qəbul etmək və maliyyə risklərini anlamaq qabiliyyətini ifadə edir. Maliyyə savadlılığının aşağı olması bir sıra mənfi nəticələrə səbəb ola bilər. İnsanlar kredit məhsullarının şərtlərini tam anlamadan borclanma qərarı verə bilər, yüksək riskli investisiyalara vəsait yatıra və ya maliyyə fırıldaqlarının qurbanına çevrilə bilərlər. Bu səbəbdən maliyyə maarifləndirilməsi maliyyə inklüzivliyinin ayrılmaz tərkib hissəsi hesab olunur.Yeni Dövlət Proqramı maliyyə savadlılığının artırılması istiqamətində geniş tədbirlər paketini nəzərdə tutur. Məktəblərdə maliyyə təhsili elementlərinin tətbiqi, ali təhsil müəssisələrində maarifləndirici proqramların həyata keçirilməsi, rəqəmsal təlim platformalarının yaradılması və əhalinin müxtəlif qrupları üçün maarifləndirici kampaniyaların təşkili bu istiqamətdə nəzərdə tutulan əsas tədbirlərdəndir. Maliyyə savadlılığının yüksəldilməsi vətəndaşların maliyyə qərarlarının keyfiyyətini artırmaqla yanaşı, maliyyə sisteminə olan etimadın güclənməsinə də xidmət edir. Daha məlumatlı maliyyə davranışı əhalinin yığım səviyyəsini artırır, investisiya fəallığını yüksəldir və ümumilikdə iqtisadi sabitliyin möhkəmlənməsinə töhfə verir.

**Sığorta bazarının inkişaf perspektivləri**

Maliyyə inklüzivliyinin vacib elementlərindən biri də sığorta xidmətlərinin geniş əhali təbəqələri üçün əlçatan olmasıdır. Azərbaycanda son illərdə sığorta bazarında müəyyən inkişaf müşahidə olunsa da, bu sektorun iqtisadiyyatda payı hələ də inkişaf etmiş ölkələrlə müqayisədə aşağı səviyyədədir. Könüllü sığorta məhsullarından istifadə səviyyəsinin məhdud olması, regionlarda sığorta xidmətlərinin zəif yayılması və bəzi məhsulların yüksək qiyməti sektorun əsas problemləri kimi qalmaqdadır.

Yeni Dövlət Proqramı sığorta bazarının inkişafına xüsusi diqqət ayırır. Sığorta məhsullarının çeşidinin artırılması, rəqəmsal satış kanallarının genişləndirilməsi, aqrar sığorta sisteminin təkmilləşdirilməsi və könüllü tibbi sığorta bazarının inkişaf etdirilməsi proqramın mühüm istiqamətləri sırasındadır.

Rəqəmsal texnologiyaların tətbiqi sığorta sektorunda da yeni imkanlar yaradır. Onlayn sığorta müqavilələrinin bağlanması, elektron ödəniş sistemlərinin inteqrasiyası və süni intellekt əsaslı risk qiymətləndirmə mexanizmlərinin tətbiqi xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olacaqdır. Bu isə sığorta bazarında rəqabətin güclənməsinə və vətəndaşların daha keyfiyyətli xidmət əldə etməsinə şərait yaradacaqdır.

Prezident İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027-2030-cu illər üçün Dövlət Proqramı” ölkənin maliyyə sektorunun inkişafında yeni mərhələnin əsasını qoyan mühüm strateji sənəddir. Proqram maliyyə xidmətlərinin yalnız böyük şəhərlərdə və yüksək gəlirli əhali qruplarında deyil, ölkənin bütün regionlarında və bütün sosial təbəqələr arasında əlçatanlığının təmin edilməsini hədəfləyir. Dövlət Proqramının uğurlu icrası nəticəsində maliyyə xidmətlərinə çıxış imkanları genişlənəcək, sahibkarlığın maliyyələşdirilməsi yaxşılaşacaq, kənd təsərrüfatında investisiya fəallığı yüksələcək, rəqəmsal maliyyə həllərinin tətbiqi sürətlənəcək və sığorta bazarının inkişafı yeni mərhələyə qədəm qoyacaqdır. Bununla yanaşı, maliyyə savadlılığının artırılması əhalinin maliyyə qərarlarının keyfiyyətini yüksəldəcək və maliyyə sisteminə olan ictimai etimadı daha da gücləndirəcəkdir.

***Amal HƏSƏNLİ,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru***

# Rusiyaya qarşı sanksiyalar gücləndirilir

Rusiyanın Ukraynaya qarşı hücumlarının gücləndiyi bir vaxtda Kiyevin müttəfiqləri və tərəfdaşları Moskvaya təzyiq üçün müxtəlif addımlar atırlar. Belə addımlardan biri də Rusiyaya qarşı sanksiyaları daha da genişləndirməkdir. Bugünlərdə Fransada keçirilən G7 ölkələrinin liderlərinin sammitində bu barədə razılığa gəlinib. Liderlər Ukraynaya dəstəyin davam etdirilməsi və Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsini məqsədəuyğun hesab ediblər.




## G7, Aİ və ABŞ bu istiqamətdə yeni addımlar atacaq

Sammitin yekunu ilə bağlı bəyanatda qeyd olunub ki, Rusiyanın hərbi iqtisadiyyatına təzyiq artırılacaq, xüsusilə neft və qaz sektorlarına qarşı sanksiyalar gücləndiriləcək. G7 liderləri, həmçinin Ukraynaya sarsılmaz dəstəklərini bir daha təsdiqləyərək hava hücumundan müdafiə sistemləri və uzaqmənzilli silahların tədarükünün artırılması barədə razılığa gəldiklərini bildiriblər.

**Aİ 21-ci paketin müzakirəsinə başlayıb**

Bundan əlavə, bir neçə gün öncə Avropa İttifaqının (Aİ) səfirləri də Rusiyaya qarşı 21-ci sanksiya paketini müzakirə etməyə başlayıblar, lakin yaxın gələcəkdə heç bir praktik qərar qəbul edilməyəcək. Bu barədə Brüsseldəki diplomatik mənbə bildirib. Diplomatın sözlərinə görə, Aİ-nin daimi nümayəndələri Avropa Komissiyasının Rusiya və Belarusa qarşı 21-ci məhdudlaşdırıcı tədbirlər paketi ilə bağlı təkliflərini müzakirə etməyə başlasalar da, müzakirə xeyli vaxt aparacaq, çünki onun təsdiqlənməsi üçün yekdil kompromis lazımdır.

İyunun 9-da Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen əsasən Rusiyanın neft ixracı və bank sisteminə qarşı yönələn 21-ci sanksiyalar paketini təqdim edib. Avropa Komissiyası Aİ-yə üzv ölkələrdən paketin iyun ayı ərzində təsdiqini istəyir. Xatırladaq ki, Aİ-nin Rusiyaya qarşı sanksiya siyahısına hazırda 2700-dən çox fiziki və hüquqi şəxs və təşkilat daxildir. Bu, Avropa İttifaqı tarixində ən böyük məhdudiyyət mexanizmi olmaqla, bütün digər Aİ sanksiyalarının ümumi sayını üstələyir.

Qeyd edək ki, Aİ-nin Rusiyaya qarşı 20-ci sanksiyalar paketi bu ilin aprelində qəbul olunmuşdu. 20-ci sanksiyalar paketi Moskvaya təzyiqi artırmaq və onun Ukraynaya qarşı hərbi əməliyyatları davam etdirmək imkanlarını məhdudlaşdırmaq məqsədi daşıyır. Sanksiyalar məhdudiyyətlərdən yayınmaya qarşı mübarizəyə aydın şəkildə istiqamətlənib və enerji sektorunu, maliyyə xidmətlərini, ticarəti, eləcə də informasiya məkanını əhatə edir. İlk dəfə olaraq sanksiyalardan yayınmağa qarşı xüsusi mübarizə mexanizmi aktivləşdirilib. Belə ki, paket çərçivəsində Rusiyanın enerji sektorunun 36 şirkətinə, o cümlədən neftin kəşfiyyatı, hasilatı, emalı və nəqlində iştirak edən müəssisələrə qarşı məhdudiyyətlər tətbiq edilib. Aİ həmçinin "kölgə donanması" adlandırılan donanmaya qarşı tədbirləri genişləndirib: sanksiya siyahısına daha 46 gəmi daxil edilib, bununla da onların ümumi sayı 632-yə çatıb. Əlavə olaraq, Aİ-dən Rusiyaya tanker satışına məhdudiyyətlər tətbiq edilib və müqavilələrə onların Moskvanın maraqları naminə istifadəsinin yolverilməzliyini nəzərdə tutan şərtin daxil edilməsi məcburi edilib. Murmansk və Tuapsedəki Rusiya limanları, eləcə də İndoneziyadakı Karimun neft terminalı da sanksiyalara məruz qalıb. Perspektivdə G7 tərəfdaşları ilə razılaşdırıldıqdan sonra Rusiya nefti və neft məhsullarının daşınması üçün dəniz xidmətlərinin göstərilməsinə qadağa qoyulması planlaşdırılır.




Sənəddə maliyyə məhdudiyyətləri də əksini tapır. Aİ 20 Rusiya bankları ilə əməliyyatlara qadağanı genişləndirərək, məhdudlaşdırılmış maliyyə müəssisələrinin ümumi sayını 70-ə çatdırıb. Həmçinin, sanksiyalardan yan keçməyə kömək edən üçüncü ölkələrdəki banklara qarşı tədbirlər tətbiq edilib. İlk dəfə olaraq mərkəzləşdirilməmiş platformalar da daxil olmaqla, Rusiya kripto-xidmətləri ilə əməliyyatlara tam qadağa tətbiq edilib. Məhdudiyyətlər rəqəmsal rubl layihəsi də daxil olmaqla, rəqəmsal maliyyə alətlərinə də şamil edilir.

Ticarət və hərbi-sənaye kompleksinə gəlincə, paketə dəyəri 365 milyon avrodan çox olan mallara yeni ixrac məhdudiyyətləri, eləcə də 530 milyon avrodan çox məbləğdə idxal qadağaları daxildir. Məhdudiyyətlər Rusiya hərbi-sənaye kompleksini sarsıtmağa yönəlib. Hərbi məhsulların, o cümlədən dronların istehsalında iştirak edən 58 şirkət və onlarla əlaqəli şəxslər sanksiyalara məruz qalıb. Siyahıya, həmçinin Çin və BƏƏ daxil olmaqla, üçüncü ölkələrdən olan təchizatçılar daxil edilib.

Ümumilikdə, 20-ci paketə 120 fiziki və hüquqi şəxs daxil edilib. Onlara qarşı aktivlərin dondurulması və maliyyə resurslarının təqdim edilməsinə qadağa, fiziki şəxslər üçün isə həmçinin ölkəyə giriş qadağası tətbiq edilir.

**ABŞ Rusiyaya qarşı məhdudiyyətləri bərpa edəcək**

20-ci sanksiyalar paketinin qəbulundan sonra Aİ 21-ci sənədin üzərində də işə başlamağı təklif etmişdi. Artıq bu istiqamətdə praktiki addımlar atılır. Bu da təsadüfi deyil. Çünki ötən ilin noyabrında Kiyevdə ABŞ, Böyük Britaniya və Avropa İttifaqı ölkələri də daxil olmaqla 21 dövlətin nümayəndələrinin iştirakı ilə keçirilən ilk "sanksiyalar" sammitində Rusiyaya qarşı beynəlxalq sanksiya koalisiyasının gücləndirilməsi qərara alınıb.

Yeri gəlmişkən, Böyük Britaniya da Rusiyaya qarşı sanksiyalar siyahısını genişləndirib. Belə ki, Britaniya hökuməti tərəfindən qəbul edilən qərara əsasən siyahıya 43 yeni maddə əlavə olunub. Bunlardan 32-si hüquqi, 11-i isə fiziki şəxsdir. Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilir ki, yeni məhdudiyyətlər Rusiyaya qarşı mövcud sanksiya rejiminin gücləndirilməsinə yönəlib.

Bundan əlavə, Hörmüz boğazından daha çox neft keçdikcə Rusiyaya qarşı məhdudiyyətlər bərpa oluna bilər. Bu barədə ABŞ Prezidenti Donald Tramp jurnalistlərin neftin ucuzlaşmasına dəstək olmaq üçün yumşaldılmış sanksiyaları bərpa edib-etməyəcəyi barədə soruşarkən deyib. ABŞ mart ayında xam neftin qiymətləri kəskin artdığı üçün Rusiya neft daşımalarına qarşı bəzi sanksiyaları müvəqqəti olaraq yumşaltmışdı. "Tezliklə bunu edə biləcəyik, çünki neft artıq axır",- deyə Tramp jurnalistlərə bildirib.

**Senata yeni qanun layihəsi təqdim olunub**

Həmçinin, Rusiyaya qarşı yeni sanksiyaları nəzərdə tutan "Ukraynaya Dəstək Qanunu" ABŞ Senatına təqdim edilib. Bu barədə ABŞ Konqresinin saytında məlumat yerləşdirilib. Məlumata görə, qanun layihəsi daha əvvəl Nümayəndələr Palatasında səsverməyə çıxarılıb və 226 konqresmen tərəfindən dəstəklənib, 195 nəfər isə əleyhinə səs verib. Sənəd Rusiyanın ticarət tərəfdaşlarına qarşı ikinci dərəcəli sanksiyaların tətbiqini nəzərdə tutur. Təkliflər arasında Rusiyadan neft, qaz, uran və digər məhsullar alan ölkələrdən ABŞ-a idxal edilən mallara 500 faizlik tarif tətbiqi də yer alır. Qanun layihəsi ilk dəfə 2025-ci ilin aprelində senatorlardan ibarət ikipartiyalı qrup tərəfindən irəli sürülüb.

*N.BAYRAMLI*

# İslam Korporasiyası ilə Azərbaycan arasında 295 milyon dollarlıq sazişlər imzalanıb

İslam İnkişaf Bankı (İİB) Qrupunun Bakıda keçirilən illik toplantıları çərçivəsində Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD) ilə Azərbaycan arasında bir sıra sazişlərin mübadiləsi baş tutub. ICD ilə SOCAR arasında Azərbaycanda maliyyələşdirmə, investisiya və konsaltinq imkanlarının araşdırılması sahəsində əməkdaşlığa dair saziş, həmçinin ICD ilə "Azərbaycan Biznesin İnkişafı Fondu2 arasında 200 milyon manat məbləğində saziş imzalanıb. Bu saziş Azərbaycanda meyarlara uyğun özəl sektor şirkətlərinin maliyyələşdirilməsi məqsədilə maliyyə institutlarına milli valyutada kredit xətlərinin təqdim olunması üzrə əməkdaşlığın çərçivəsini müəyyən edir.



Bununla yanaşı, ICD ilə "Turkic Investment Fund" arasında 50 milyon dollar məbləğində çərçivə sazişi, ICD ilə "Azerconnect Group" arasında 20 milyon dollar həcmində birbaşa maliyyələşdirmə xəttinin təqdim edilməsinə dair, eləcə də ICD ilə "TuranBank" arasında 15 milyon dollar məbləğində kredit xəttinin ayrılmasına dair sənədlərin mübadiləsi həyata keçirilib. Sözügedən kredit xətti ICD tərəfindən banka təqdim olunacaq və daha sonra Azərbaycanda meyarlara cavab verən özəl sektor şirkətlərinin maliyyələşdirilməsinə yönəldiləcək. Həmçinin "International Islamic Trade Finance Corporation" ilə "Rabitabank" arasında 10 milyon dollar məbləğində maliyyələşdirmə şərtlərinə dair məktubun (Term Sheet) mübadiləsi baş tutub.

İmzalanan və mübadilə edilən sənədlərin ümumi dəyəri 295 milyon dollar həcmində qiymətləndirilir.

# İdeyalar aləminə səyahət

## Tomas Mannın "Sehirli dağ" romanı haqqında

Bilmirəm nə dərəcədə doğru təsbitdir, bu əsər iyirminci əsr Avropa ədəbiyyatında intellektual roman janrının bünövrəsi sayılır. Onun yazılmasına yazıçının yəhudi əsilli ömür-gün yoldaşı Katya xanımın müalicə olunduğu bir Davos sanatoriyasında üç həftə boyunca gördükləri təkan vermişdi. Müəllif əvvəlcə mövzunu təxminən "Venesiyada ölüm" həcmində bir novella çərçivəsinə sığdırmağa çalışsa da, sonralar əsər çərçivəsini sındırıb böyüdükcə böyümüş, iki cildlik, min səhifəlik nəhəng romana çevrilmişdi. Həm də proses boyunca əsərin təkcə həcmi yox, məzmunu, üslubu da dəyişmişdi - siftəcə Tomas Mann həyat gerçəkliyindən ölümcül xəstəliyə sığınan adamlar haqqında satirik povest yazmağı planlasa da, sonradan əsər metafizik problemlərin çözüldüyü mistik-allegorik romana qədər qol-budaq atıb ciddi fəlsəfi-intellektual xarakter almışdı.

Yazıçı sehirli dağın zirvəsinə dırmanmağa ilk dəfə 1912-ci ildə cəhd göstərmişdi, ancaq araya ayrı işlər, üstəlik də dünya müharibəsi girdiyindən işinə fasilə verib, müharibədən sonra mövzuya yenidən qayıtmışdı. 1924-cü ildə kitab işıq üzü görəndə Tomas Mannın əlli yaşının tamam olmağına bir il vardı. Bu roman onu həlo "Buddenbroklar"a görə mükafatlandırmaq istəyən, ancaq araya ayrı işlər, üstəlik... 

Əsər tərbiyəvi roman (pedaqoji roman da demək olar) qəlibində yazılıb. Əlbəttə, müəllif burada kimisə tərbiyələndirməyin qayğısına qalmayıb, oxucuya öyüd-nəsihət verməyə onun heç xəyalından da keçməyib. Hələ onu demirəm ki, nə yazıçı, nə də onun baş qəhrəmanı əsər boyu konkret bir etik-fəlsəfi imperativ, ya hansısa mənəvi-əxlaqi konsepsiya, nümunəvi, ideal xarakter də ortaya qoymur. Bu baxımdan Dostoyevskinin, Tolstoyun bundan qabaq haqqında danışdığımız sosial qəlibə salınmış romanları daha çox tərbiyəvidir, nəinki bu roman. Əvvəllər də söylədiyimiz kimi, müxtəlif mövzu qəliblərinə (müharibə romanı, məhəbbət romanı, sosial roman, siyasi roman, psixoloji roman, detektiv roman, fantastik roman, məişət romanı...) salınmış romanların ideya-məzmunu, məğzi bir-birindən tamam fərqlənə bilər; məsələn, Tolstoyun savaş romanıyla Remarkın müharibə romanı, Floberin məhəbbət romanıyla Drayzerin sevgi (qadın) romanı, Jül Vernin fantastik romanıyla Markesin fantasmoqorik romanı, yaxud da Konan Doylun cinayət təhqiqatlarıyla Züskindin fəlsəfi detektivi arasında yerlə göy qədər məsafə var. "Sehirli dağ" romanı da oxucusunun olsa-olsa intellektini itiləyə, zəkasını tərbiyələndirə bilər.

***

Roman həm çox sadə, həm də çox mürəkkəbdir: ona görə sadədir ki, burada heç bir kəskin süjet, alabəzək interyer, intizarlı macəra, qəliz konflikt yoxdur; ona görə mürəkkəbdir ki, bu sadalananlar hamısı fikir müstəvisində, zehni arenada, ideya qatında baş verir, yəni burada hadisələr yox, düşüncələr toqquşur, insanlar yox, ideyalar mühakimə olunur, obrazlarsa konkret insanlardan çox mücərrəd ruhlara, ideoloji konstruktlara bənzəyirlər. Bədii məkanın epsentri olan Davosdakı vərəm sanatoriyasi dərələrdən, düzlərdən yüzlərlə metr yüksəklikdə qərar tutmuş, yer üzünün hay-küyündən, qayğılarından uzaq yarı gerçək, yarı xəyali bir ərazidir.

Əslində, bu sanatoriya da, sanatoriyanın yerləşdiyi "sehirli" dağ da metafizik aləmin allegorik ifadəsidir, buranı Platonun ideyalar aləminə, Kantın noumenlər dünyasına, Hegelin məntiq səltənətinə, Yunqun arxetiplər yuvası kollektiv təhtəlşüuruna da bənzətmək olar. Bura göyün özüdür, buradan bütün yer üzünə yuxarıdan-aşağı baxılır. Bura düşmənçiliklərin barışdığı, ziddiyyətlərin qol-boyun gəzdiyi, təzadlı fikirlərin eyni vaxtda, eyni haqla mövcud olduğu,ideoloji xətlərin paralel yürüdüyü bir vəhdət məqamıdır. Bütün bunlarla yanaşı, bura həm də beynəlmiləl Avropanın mənəvi həyatının timsalıdır.

Burada zaman durğundur, vaxt, demək olar, getmir, günlər əbədiyyət kimi bir-birinə bənzəyir. Burada həyatla ölüm iç-içədir, qardaşdır; həyat ölümə, ölüm həyata nəinki qarşı çıxmır, tam tərsinə, ikisi də bir-birini tamamlayır, bir-birinə dəstək verir, bir-birini törədir. Vərəm sanatoriyasında hamı ergec öləcəyini dəqiq bilir, bununla belə hər kəsin kefi kökdür, heç kim gününü ah-vayla keçirmir, danışırlar, gülürlər, şənlənirlər. Sanatoriya eynən Tanrı dərgahı kimi həm istirahət, əyləncə, həm də xəstəlik, işgəncə səltənətidir, başqa sözlə, cənnət də, cəhənnəm də buralardadır.

Burada ölümlə dirim yanaşı addımlayır, ölümlü faniliklə ölümsüz əbədiyyət astarla üz kimi doğma, ayrılmazdır. Yazıçı qəhrəmanını bu ucalığa aşağıdan - ötəri qayğılar qazanında qaynayan şəhər həyatının içindən, sabahının ardınca qaçmaqdan çərləyən şəhər adamlarının arasından seçib ayırıb gətirir, onu bir növ elçi kimi yerlə göy arasında izdivac bağlamaq üçün Alp dağlarının zirvəsinə qaldırır. Görəsən, bu izdivacdan nəsə törəyəcəkmi?..

***

Həcminə görə romanda elə də çox personaj yoxdur. Hər personajın konkret adı, nəsli-kökü, yeri-yurdu, ölkəsi, milliyyəti, peşəsi, sənəti olsa da, onların hər biri ruhən hansısa ideyanın, fəlsəfi konsepsiyanın, psixoloji temperamentin həm təcəllası, həm də təmsilçisidir. Onların bəzisi əsər boyunca sağalıb sanatoriyadan evə buraxılır, bəzisi elə həkim nəzarəti altında canı dağlara tapşırır.

Süjet əsasən sanatoriyada cərəyan eləyir, hadisələr (əgər bunlara hadisə demək olarsa) müxtəlif fikir toqquşmaları üçün fon rolunu oynayır, yəni süjet də, hadisə də bu romanda ikinci dərəcəli əhəmiyyət daşıyır. Kitab cəmi yeddi fəsildən ibarət olsa da, fəsillərin həcmi əvvəldən axıra getdikcə böyüyür, xüsusən də sonuncu fəsillərin hər biri, demək olar, bir roman həcmindədir; üstəlik, fəsillər özləri də konkret problematikadan doğan ayrı-ayrı yarımbaşlıqlar altında yarımfəsillərə bölünür. Bölgü zahirən qeyri-mütənasib, nizamsız görünsə də, yeddi rəqəmi əsərdə magik mahiyyət daşıyır. Təkcə bunu demək yetər ki, xəstə qohumuna baş çəkmək üçün İsveçrənin Davos kurort şəhərinin yaxınlığında, Alp dağlarının zirvəsində yerləşən, müəllifin "Berqhof" adlandırdığı sanatoriyaya üç həftəliyinə gəlmiş baş qəhrəman Hans Kastorp burada nə az, nə çox, düz yeddi il ləngiyəsi olur.

Hans almanların olduqca populyar sadəlövh nağıl qəhrəmanı (müəllif ümumən hər bir personaja xasiyyətinə, mahiyyətinə uyğun ad verib), yeddi rəqəmi isə əbədiyyət rəmzidir. Allegorik xarakter daşıdığına görə əsərdə belə simvollar, göndərmələr, şərtiliklər həddindən artıq çoxdur (hətta ölümcül xəstəlik özü də metaforadır), onların hər birinin üstündə durmaq üçün ən azı romanın özü boyda bir kitab yazmaq lazım gələrdi. Üzdə son dərəcə yenilikçi təsir bağışlayan intelligent surətlərin, dövrü üçün ultramüasir sayılası intellektual söhbətlərin belə dərinliyindən cürbəcür mifik obrazların, əsatiri süjetlərin, tanrıça Veneranın toruna düşüb yeddi il əsirlikdə qalmış aşiq cəngavər, sərgərdan şair Tanheyzer haqqında qədim german əfsanəsinin qulağı görünür.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Azadlığın və ləyaqətin təməl sütunu!

## Hüquqlar qorunduqca insan, insan qorunduqca cəmiyyət güclənir

Bəşəriyyət texnologiya, elm və iqtisadi inkişaf sahəsində görünməmiş nailiyyətlər əldə etsə də, insan hüquqlarının qorunması məsələsi hələ də dünyanın bir çox ölkəsində aktual olaraq qalır. Bu fakt göstərir ki, dövlətlərin gücü yalnız onların iqtisadi imkanları ilə deyil, ilk növbədə insanına verdiyi dəyər, vətəndaşının hüquqlarını nə dərəcədə qoruması və insan ləyaqətinə necə yanaşması ilə ölçülür. 18 iyun ölkəmiz üçün sadəcə təqvimdə yer alan rəsmi gün deyil. Bu gün hər bir insanın doğulduğu andan etibarən malik olduğu toxunulmaz hüquqların, bərabərlik prinsiplərinin, insan ləyaqətinin və hüquqi dövlət anlayışının cəmiyyət həyatında nə qədər böyük əhəmiyyət daşıdığını xatırladan mühüm bir gündür.

İnsan hüquqları anlayışının ən böyük xüsusiyyəti ondan ibarətdir ki, bu hüquqlar insanın dili, dini, irqi, cinsi, sosial vəziyyəti, milli mənsubiyyəti və ya dünyagörüşündən asılı olmayaraq hər kəs üçün eyni dərəcədə keçərlidir. Məhz bu prinsip bəşəriyyətin ortaq dəyərlər sistemi kimi qəbul edilir. Çünki hüquqların ayrı-seçkiliyə məruz qalması cəmiyyətlərdə ədalətsizlik, sosial gərginlik və ciddi qarşıdurmalar yaradır.

**Ədalətli cəmiyyətin görünməz gücü!**

Əslində insan hüquqlarının qorunması yalnız dövlət qurumlarının və ya beynəlxalq təşkilatların işi deyil, bu məsuliyyət hər bir insanın üzərinə düşür. Çünki insan hüquqlarına hörmət ailədə başlayır, məktəbdə formalaşır, iş yerlərində möhkəmlənir və cəmiyyətin bütün sahələrində gündəlik davranışlarımız vasitəsilə özünü göstərir.

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətlə inkişaf etməsi insan hüquqları sahəsinə də yeni çağırışlar gətirib. Şəxsi məlumatların qorunması, kibertəhlükəsizlik, sosial şəbəkələrdə nifrət nitqinin qarşısının alınması və informasiya təhlükəsizliyi artıq ənənəvi insan hüquqları anlayışının ayrılmaz hissəsinə çevrilib. Bu sahədə yeni mexanizmlərin yaradılması xüsusi əhəmiyyət daşıyır.

**İnsan amili dövlət siyasətinin mərkəzində...**

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətində insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, şəffaf idarəetmənin genişləndirilməsi və qanunun aliliyinin möhkəmləndirilməsi xüsusi yer tutur. Son illərdə bu istiqamətdə bir sıra mühüm proqramlar və institusional islahatlar həyata keçirilib.

Ölkədə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, vətəndaş müraciətlərinə operativ baxılması, dövlət xidmətlərinin əlçatanlığının artırılması və elektron idarəetmə mexanizmlərinin tətbiqi insan hüquqlarının praktik müstəvidə daha səmərəli qorunmasına xidmət edən mühüm addımlar kimi qiymətləndirilir. Çünki müasir dövrdə insan hüquqlarının təminatı yalnız hüquqi sənədlərlə deyil, həm də vətəndaşın gündəlik həyatında hiss etdiyi real imkanlarla ölçülür.

Xüsusilə, sosial siyasət sahəsində əhalinin həssas təbəqələrinin müdafiəsinin gücləndirilməsi, yeni sosial paketlərin həyata keçirilməsi, şəhid ailələri, qazilər, əlilliyi olan şəxslər və digər sosial qruplar üçün dəstək mexanizmlərinin genişləndirilməsi dövlətin insan amilinə verdiyi önəmin göstəricilərindən biri kimi dəyərləndirilir. Bu istiqamətdə görülən işlər sosial ədalətin təmin olunmasına xidmət edir. Ölkədə qadın hüquqlarının, uşaq hüquqlarının, təhsil hüququnun, əmək hüququnun və sağlam ətraf mühitdə yaşamaq hüququnun qorunması istiqamətində qəbul edilən proqramlar göstərir ki, insan hüquqları anlayışı yalnız bir sahəni deyil, cəmiyyət həyatının bütün istiqamətlərini əhatə edən geniş və çoxşaxəli bir məsələdir.

Bu gün Azərbaycan beynəlxalq əməkdaşlıq platformalarında da insan hüquqlarının qorunması, tolerantlıq, multikulturalizm və sosial həmrəyliyin təşviqi istiqamətində fəal iştirak edir. Bu yanaşma ölkənin qlobal səviyyədə humanitar təşəbbüslərinin mühüm hissəsinə çevrilib.

Tarix dəfələrlə sübut edib ki, insan hüquqlarının zəiflədiyi cəmiyyətlərdə inkişaf uzunömürlü olmur. Belə ki, qorxu üzərində qurulan sistemlər müvəqqəti nəticələr versə də, insan ləyaqəti, ədalət və azadlıq üzərində qurulan dövlətlər daha güclü, dayanıqlı və firavan gələcək formalaşdırmağa nail olurlar. Bu səbəbdən insan hüquqları sadəcə hüquqi termin deyil, insanın dəyərini müəyyən edən, onun səsini eşidilən edən, arzularını reallaşdırmasına imkan yaradan və cəmiyyətlərin humanist simasını formalaşdıran ən böyük ümumbəşəri sərvətlərdən biri hesab olunur. Hər birimiz bu sərvətin qoruyucusuna çevrildiyimiz zaman daha təhlükəsiz, daha ədalətli və daha insanpərvər bir dünya qurmaq mümkün olacaq.

***Yeganə BAYRAMOVA***

*İdman*

## Çempionlar Liqasında “Sabah”ın rəqibi bəlli olub

UEFA Çempionlar Liqasının 2026/2027 mövsümünün II təsnifat mərhələsinin püşkatma mərasimi keçirilib. İsveçrənin Nyon şəhərində yerləşən UEFA-nın mənzil-qərargahında baş tutan püşkatmada “Sabah”ın rəqibi bəlli olub. Valdas Dambrauskasın baş məşqçisi olduğu komanda I təsnifat mərhələsində TNS-i mübarizədən kənarlaşdırsa, “Vardar” (Şimali Makedoniya) - “Kups” (Finlandiya) cütünün qalibi ilə qarşılaşacaq. İlk oyun Bakıda keçiriləcək. Cavab matçı isə səfərdə baş tutacaq.




Qeyd edək ki, UEFA Çempionlar Liqasının II təsnifat mərhələsinin ilk oyunları iyulun 21-22-də, cavab matçları isə iyulun 28-29-da baş tutacaq.

## Boksçularımız Olimpiya ümidləri turnirində iştirak edəcəklər

Azərbaycan boksçuları iyunun 18-də Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda start götürəcək Olimpiya ümidləri turnirdə iştirak edəcəklər. Üç gün davam edəcək yarışda millimiz 2 yaş kateqoriyasında mübarizə aparacaq.




U-19-lar arasında rinqə Əli Əliyev (50 kq), Nihat Qasımov (55 kq), Əli Baxışov (60 kq), Şahin Aslanov (65 kq), Rza Rzayev (70 kq), Səftər Məmmədzadə (+90 kq) və Gülər Hüseynova (51 kq) çıxacaqlar. U-17-lərin yarışında isə Aysel Fərəcova (46 kq), Aydan İsmayıllı (48 kq), Fatimə Məmmədli (50 kq), Cəmilə Muradlı (57 kq), Səma Abbasova (66 kq) və Xumar Cəfərli (80 kq) qüvvələrini sınayacaqlar.

Oğlan boksçular beynəlxalq turnirdə baş məşqçi Elbrus Rzayevin, qızlar isə baş məşqçi İlkin Ağayevin rəhbərliyi altında çıxış edəcəklər. Nümayəndə heyətinə Azərbaycan Boks Federasiyasının İdarə Heyətinin üzvü Rövşən Hüseynov rəhbərlik edəcək.

## “Zirə” Gürcüstan klubuna qarşı...

UEFA Konfrans Liqasında I təsnifat mərhələsinin püşkatma mərasimi keçirilib. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbirdə Azərbaycan təmsilçisi “Zirə”nin rəqibi müəyyənləşib. Bakı klubu püşk zamanı səpələnmişlər səbətində yer alıb. Komanda ilk raundda “Torpedo” (Kutaisi, Gürcüstan) ilə qarşılaşacaq. Qeyd edək ki, UEFA Konfrans Liqasında I təsnifat mərhələsinin matçları iyulun 9-u və 16-da keçiriləcək.

## Paraatletimiz Tunis Qran-Prisində gümüş medal qazanıb




Azərbaycan paraatleti Oloxan Musayev Tunis Qran-Prisində gümüş medal qazanıb. Milli Paralimpiya Komitəsindən bildirilib ki, paralimpiya çempionu nüvətələmə yarışında F55 kateqoriyasında 11.64 metr nəticə göstərərək fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

Qeyd edək ki, daha əvvəl milli komandanın digər üzvü Rüfət Rəfiyev F36 kateqoriyasında gümüş medala sahib olub.

İyunun 19-na kimi davam edəcək Tunis Qran-Prisində ölkəmizi nüvətələmə növü üzrə Oloxan Musayev (F55), Elvin Astanov (F53), Samir Nəbiyev (F57), Ömər Bozbaxov (F57) və Rüfət Rəfiyev (F36) təmsil edirlər. Samir Nəbiyev və Ömər Bozbaxov nüvətələmə ilə yanaşı, diskatma yarışlarında da qüvvələrini sınayacaqlar.

## Mbappe Fransa millisinin tarixində ən çox qol vuran futbolçu olub

Fransa millisinin hücumçusu Kilian Mbappe milli komandanın tarixində ən çox qol vuran futbolçu olub. O, 2026-cı il dünya çempionatında Seneqala qarşı oyunda vurduğu iki qolla milli komandadakı qollarının sayını 58-ə çatdırıb.

Bununla da Mbappe Fransa millisinin bombardirləri siyahısında 57 qolla ikinci yerdə qərarlaşan Olivye Jirunu geridə qoyaraq birinci pilləyə yüksəlib.



Fransa millisinin hücumçusu dünya çempionatlarında vurduğu qolların sayına görə braziliyalı əfsanə Peleni geridə qoyub.

Qeyd edək ki, Mbappe Fransa millisinin heyətində 2018-ci ildə dünya çempionu olub, 2022-ci il mundialında isə gümüş medal qazanıb.

## Allah rəhmət eləsin!

“Yeni Azərbaycan” qəzetinin kollektivi görkəmli dövlət xadimi, yazıçı-dramaturq
**HİDAYƏT ORUCOVUN**
vəfatı ilə əlaqədar oğlu Zəfər Orucova və yaxınlarına dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5355
Sifariş: 789
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova